EVDƏ QAL, SAĞLAM QAL!

**Vətəndaş məktubları: "Cənab Prezident, Sizin məqsədyönlü siyasətiniz xalqımızı daha böyük uğurlara, zəfərlərə aparacaq"**



Bax 8

**Birinci vitse-prezident Mehriban Əliyeva KİV nümayəndələrini təbrik edib**



Bax 2



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!


Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 124 (6088) **23 iyul** 2020-ci il. **Qiyməti 40 qəpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# BMT-nin Baş katibi Prezident İlham Əliyevə telefonla zəng edib



Bax 2

*İyulun 22-də BMT-nin Baş katibi Antonio Quterreş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.*

## Azərbaycan mətbuatı öz şərəfli missiyasını layiqincə yerinə yetirir



Milli-mənəvi dəyərlərimizin, dövlətçilik maraqlarımızın qorunmasında müstəsna yeri və rolu olan Azərbaycan milli mətbuatının yaranmasından 145 il ötür. 22 iyul 1875-ci ildə xalqımızın görkəmli ziyalısı Həsən bəy Zərdabinin nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı ötən dövr ərzində öz tarixi missiyasını layiqincə yerinə yetirib, xalqımızın mənafeyinə, dövlətimizin maraqlarına xidmət edən çoxşaxəli, məqsədyönlü fəaliyyəti ilə mütərəqqi nümunə yaradıb. Həsən bəy Zərdabinin "mətbuat...

Bax 6

## Ermənistana məxsus daha bir PUA məhv edilib



Bax 6

İyulun 22-si axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri "X-55" taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonunun Ağdam kəndi istiqamətindəki mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib. Müdafiə Nazirliyinin mətbuat...

## Rayonlara yollar nə vaxt açılacaq?



Rayonlara yolların açılması koronavirusun geniş yayılmasına səbəb ola bilər. SİA-nın məlumatına görə, bunu Azərbaycan Prezidentinin İqtisadi məsələlər üzrə köməkçisi Şahmar Mövsümov bu gün Nazirlər...

Bax 10

## Leyla Abdullayeva: ABŞ Dövlət Departamenti kimə və nəyə görə narahatdır, bunu başa düşə bilmirik

2020-ci il iyulun 20-də ABŞ Dövlət Departamenti "ABŞ-ın COVİD-19 pandemiyasına qarşı qlobal mübarizədə demokratiya, yaxşı idarəetmə və insan hüquqlarına dəstəyi" adlı informasiya bülleteni dərc edib və burada Azərbaycana da istinad edilib. Belə ki, Dövlət Departamenti Azərbaycan hakimiyyətini COVİD-19-a qarşı görülən tədbirlərin vətəndaş cəmiyyəti...



Bax 5

## "Barselona"da istirahət

"Barselona"nın futbolçuları istirahətə buraxılıb. Qol.az "Marca"ya istinadən xəbər verir ki, Kataloniya təmsilçisinin baş məşqçisi Kike Setyen futbolçulara bir həftəlik istirahət verib. Oyunçular iyulun 28-də məşqə qayıdacaqlar. Qeyd edək ki...



Bax 16

**Əhməd İsmayılov: "Milli mətbuatımız ötən 145 ildə zəngin və şərəfli yol keçib"**



Bax 7

**Bəhruz Quliyev: "Prezident İlham Əliyev ölkəmizdə azad sözün hamisidir"**



Bax 7

**Ermənistanın hərbi iflasa uğradığı Tovuz döyüşlərində ortaya çıxdı**



Bax 12

# BMT-nin Baş katibi Prezident İlham Əliyevə telefonla zəng edib

*İyulun 22-də BMT-nin Baş katibi Antonio Quterreş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.*



***Bu barədə Prezidentin Mətbuat xidmətindən Trend-ə məlumat verilib. BMT-nin Baş katibi Antonio Quterreş, ilk növbədə, Ermənistan-Azərbaycan sərhədində baş vermiş hərbi toqquşmalardan narahat olduğunu bildirib və insan tələfatı ilə bağlı təəssüf hissini ifadə edib. BMT-nin Baş katibi, eyni zamanda, qeyd edib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlarda status-kvo həmişəlik davam edə bilməz və o, hərbi əməliyyatlara son qoyulmasına, danışıqların davam etdirilməsinə çağırıb.***

Prezident İlham Əliyev telefon zənginə və sərhəddə baş vermiş hadisələrlə bağlı şəxsən diqqət göstərdiyinə görə BMT Baş katibinə minnətdarlığını bildirib. Dövlətimizin başçısı məlumat verib ki, Ermənistan tərəfi təkcə Azərbaycan hərbçilərini deyil, Azərbaycan kəndlərini də atəşə tutub və bunun nəticəsində hərbçilərimizlə yanaşı, 76 yaşlı mülki şəxs də həlak olub. Azərbaycan Ordusunun adekvat cavabı nəticəsində Ermənistanın hücumunun qarşısı alınıb və hazırda vəziyyət nisbətən sabitləşib. Prezident İlham Əliyev vurğulayıb ki, toqquşmalar işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlardan uzaq məsafədə baş verib və Azərbaycanın Ermənistan ərazisində hərbi məqsədləri yoxdur. Biz sadəcə öz ərazilərimizi və insanlarımızı qorumalıyıq və qoruyuruq.

Dövlətimizin başçısı BMT Baş katibinin bu fikri ilə razı olduğunu bildirib ki, status-kvo həmişəlik davam edə bilməz və qeyd edib ki, Azərbaycan həmişə danışıqlar masası arxasında konstruktiv mövqedə olub. Lakin Ermənistan Baş nazirinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı və digər tərəfdən onun "Azərbaycan Ermənistanla deyil, Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bildirməsi danışıqlar prosesini ciddi şəkildə təhlükə altına salır. Dövlətimizin başçısı bir daha vurğulayıb ki, Ermənistan 30 ilə yaxındır BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə məhəl qoymur. Prezident İlham Əliyev bir daha BMT-nin Baş katibinə telefon zənginə və sərhəddə baş vermiş hadisələrə göstərdiyi diqqətə görə minnətdarlığını bildirib.

## Birinci vitse-prezident Mehriban Əliyeva KİV nümayəndələrini təbrik edib



Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "İnstagram" hesabında 22 iyul - Milli Mətbuat Günü münasibəti ilə paylaşım edilib. SİA-nın məlumatına görə, paylaşımda deyilir: "Hörmətli KİV nümayəndələri! Əziz dostlar! Sizi Azərbaycan milli mətbuatının 145 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Hər birinizə möhkəm cansağlığı, səadət, sevinc, nikbinlik, tükənməz enerji, yaradıcılıq uğurları və yeni-yeni nailiyyətlər arzulayıram!"

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikasında mətbuata əlavə maliyyə yardımının ayrılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının kütləvi informasiya (KİV) vasitələrinin əməkdaşlarına fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının kütləvi informasiya vasitələri (KİV) nümayəndələrinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Kütləvi informasiya vasitələrinin (KİV) nümayəndələrinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

# Prezidentin köməkçisi: "Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu hər zaman yeni gərginliyə yol aça bilər"

***Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Fransanın "France24" televiziya kanalına müsahibə verib. AZƏRTAC xəbər verir ki, verilişdə Hikmət Hacıyev Ermənistanın Azərbaycana qarşı hərbi təcavüz törətdiyini, 30 ilə yaxın müddətdə Azərbaycan ərazilərini işğal altında saxladığını və Ermənistanın Azərbaycana qarşı başladığı müharibənin davam etdiyini bildirib.***

Prezidentin köməkçisi dövlət sərhədinin Tovuz istiqamətində baş vermiş toqquşmanın təsadüfi sərhəd insidenti olmadığını, Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüz siyasətinin tərkibi olduğunu bildirib.

H.Hacıyev 2018-ci il Düşənbə görüşündən etibarən Azərbaycanın danışıqlar prosesini irəli aparmaq üçün konstruktiv addımlar atmasına baxmayaraq, Ermənistanın irticaçı xarakter daşıyan hərbi doktrina qəbul etdiyini, Ermənistan müdafiə nazirinin "yeni müharibələr, yeni ərazilər" şüarı ilə çıxış etdiyini, N.Paşinyanın "Qarabağ Ermənistandır" deməklə Azərbaycan ərazilərini anneksiya siyasəti yürütdüyünü xatırladıb. H.Hacıyev Ermənistanın rasizm və şovinizmə əsaslanan yeni milli təhlükəsizlik strate-




giyasını qəbul etdiyini vurğulayıb. O, Ermənistanın bu kimi addımlarının Tovuzda baş vermiş yeni təcavüz üçün zəmin yaratdığını deyib.

Prezidentin köməkçisi Azərbaycanın Ermənistanla sərhəd zonasında hər hansı hərbi məqsədlərin olmadığını, əksinə ölkəmizin həmin ərazidə sabitliyin təmin olunmasında maraqlı olduğunu vurğulayıb.

Ermənistanın bu hücumu törətməklə aşağıdakı məqsədləri güddüyünü deyib:

- Ermənistan bu yolla Ermənistan-Azərbaycan münaqişəsindən diqqəti yayındırmağa və danışıqlar prosesini pozmağa çalışır;
- Ermənistan regionda yeni gərginlik ocağı yaratmağa cəhd göstərir;
- Ermənistan üçüncü tərəfləri və üzv olduğu hərbi-siyasi təşkilatları münaqişəyə cəlb etməyə çalışır;
- Ermənistan kənarda qaldığı Şərq-Qərb dəhlizi və Azərbaycanın neft-qaz kəmərlərinə təhlükə yaratmağa səy göstərir;
- Ermənistan, eyni zamanda, gərginlik yaratmaqla ölkədaxili ciddi sosial-iqtisadi problemlərdən diqqəti yayındırmağa çalışır.

Prezidentin köməkçisi Ermənistanın Azərbaycanın mülki obyektlərini hədəfə aldığını və bir mülki şəxsin həlak olduğunu, Ermənistanın hərbi dairələrinin Azərbaycanı və ölkəmizin neft-qaz infrastrukturunu "İskander" raketləri ilə hədələdiyini diqqətə çatdırıb.

ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə toxunan H.Hacıyev danışıqların mahiyyətli olmalı olduğunu, həmsədrlərin BMT Təhlükəsizlik Şurasının qətnamələrindən irəli gələn mandatlarını yerinə yetirməli və Azərbaycan ərazilərinin işğaldan azad edilməsi istiqamətində fəaliyyət göstərməli olduqlarını bildirib.

Hikmət Hacıyev Ermənistanın saxtalaşdırılmış tarixin girovu olduğunu qeyd edərək Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğunun hər zaman yeni gərginliyə yol aça biləcəyini vurğulayıb, qoşunların təmas xəttindəki vəziyyətin Birinci Dünya müharibəsində Fransa və Almaniya arasında olan səngər müharibəsinə bənzədiyini deyib.

Prezidentin köməkçisi XXI əsrdə işğalın və güc tətbiq edərək dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin dəyişdirilməsi cəhdlərinin qəbuledilməz olduğunu vurğulayıb və Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılmalı olduğunu bildirib.

Xəbər ilə aşağıdakı keçid vasitəsilə tanış olmaq mümkündür:

https://www.youtube.com/watch?time_continue=1&v=IHVus4YMXPk&feature=emb_logo

# Prezident qayğısı, dövlət dəstəyi

## *İlham Əliyev şəhid ailələrinin ən böyük hamisi olduğunu növbəti dəfə nümayiş etdirdi*

***Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etmək, maddi nemətlərin ədalətli bölgüsünə nail olmaq, daxili siyasətin sosialyönümlüyünü ön planda saxlamaq, vətəndaşların sosial rifah halını yaxşılaşdırmaqdan ibarətdir. Azərbaycanda da dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. Xüsusi ilə də şəhid ailələri və Qarabağ müharibəsi əlilləri, onların ailə üzvləri daim dövlətin diqqət və qayğısı ilə əhatə olunurlar. Bu kateqoriyaya aid olan insanlara mənzil və avtomobillər verilir, güzəşt və müxtəlif kompensasiyalarla təmin edilirlər.***




### Vətəndaşının maraqlarını hər şeydən üstün tutan dövlət

Bu gün əhalinin sosial müdafiəsinin təmin edilməsi Azərbaycan dövlətinin qarşısında duran strateji vəzifələrdən biridir. Yəni sosial siyasət dövlət siyasətinin prioritetidir. Bunu dəyərləndirərkən Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, sosial siyasət həmişə prioritet olub və bundan sonra da olacaq. Bütün atılan addımlar bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir. Elə dövlət başçısının müvafiq fərmanları ilə şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi də Prezidentin növbəti humanist təşəbbüsü kimi qiymətləndirilir. Öncə onu qeyd edək ki, son prezident seçkilərindən sonra dövlət başçısının imzaladığı ilk fərman məhz bu kateqoriyaya aid olan insanlara şamil edildi. Belə ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanına əsasən şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsinə başlanıldı. Bu fərman şəhid ailələrinin sosial müdafiəsinin yaxşılaşdırılmasının ölkədə aparılan sosial siyasətin başlıca məqsədlərindən biri olduğunu bir daha təsdiq etdi, ictimaiyyət tərəfindən böyük rəğbət və məmnunluqla qarşılandı. Xatırladaq ki, birdəfəlik ödəmənin verilməsindən ötrü dövlət büdcəsindən 2018-ci il üçün 58 milyon, 2019-cu il üçün 50 milyon manat vəsait ayrıldı.

### Dövlət başçısının növbəti humanist təşəbbüsü

İyulun 21-də Bakıda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak edən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təqdimat mərasimində dövlət başçısı çıxış edərək bildirib ki, bu, dövlətin sizə növbəti diqqətinin təzahürüdür və işlər davam edəcək: "Bilirsiniz ki, şəhid ailələrinin, müharibə əlillərinin problemləri daim diqqət mərkəzindədir və son illər ərzində bu istiqamətdə çox böyük işlər görülüb. Təkcə onu demək kifayətdir ki, 8 mindən çox şəhid ailəsi, müharibə əlili mənzillərlə təmin edilib və 7 minə yaxın avtomobil verilibdir. Hesab edirəm ki, biz bu il də bu sahədə rekord göstəriciyə nail olacağıq, buna şübhə yoxdur. Bu il 1500 şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilir və ediləcəkdir. Bütün mənzillər ən yüksək keyfiyyətlə tikilən yeni evlərdədir. Eyni zamanda, sizin üçün 400 avtomobil də nəzərdə tutulur və beləliklə, biz bu il bu sahədə ən böyük göstəriciyə nail ola bilmişik. Müqayisə üçün deyə bilərəm ki, keçən il 934 mənzil verilmişdir, bu il isə 1500, ondan əvvəlki illərdə təqribən ildə 500-600-700. Yəni, bu, onu göstərir ki, bu problemi həll etmək və şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən nəzərdə tutulmuş evlərin təqdim edilməsi üçün çox fəal iş aparılır".

### "Dövlət büdcəsinin böyük hissəsi sosial məsələlərin həllinə xərclənir"

Dövlət başçısı onu da bildirib ki, dövlət büdcəsinin böyük hissəsi sosial məsələlərin həllinə xərclənir: "Sirr deyil ki, bu məqsədlər üçün böyük vəsait nəzərdə tutulur və bildiyiniz kimi, dövlət büdcəsinin böyük hissəsi sosial məsələlərin həllinə xərclənir. Bu sosial xərclərin içində şəhid ailələrini, müharibə əlillərini, müharibə veteranlarını, məcburi köçkünləri əhatə edən çox böyük proqramlar icra olunur. Məcburi köçkünlərin məişət problemlərinin həllinə gəldikdə, bu il bu sahədə də rekord göstərici gözlənilir. Bu il 7 mindən çox məcburi köçkün ailəsi mənzillərlə təmin ediləcək. Bu, bir daha onu göstərir ki, biz bu məqsədlər üçün istənilən xərclərə gedirik, bunu təmin edirik və şadam ki, mənim çağırışımdan sonra özəl sektor da bu işlərə qoşulub. Bildiyiniz kimi, özəl şirkət - "Paşa Holdinq" tərəfindən onun vəsaiti hesabına Qobu qəsəbəsində məcburi köçkünlər üçün 3 şəhərcik inşa edilibdir və orada artıq 4 minə yaxın köçkün ailəsi məskunlaşıb. Eyni zamanda, şəhid ailələri, müharibə əlilləri üçün evlərin tikilməsinin, əlbəttə ki, böyük hissəsini dövlət öz üzərinə götürübdür. Ancaq özəl sektor da artıq fəaldır və bu il "Kapital Bank" 68 mənzili öz vəsaiti hesabına bu kateqoriyadan olan insanlara təqdim edib. Bu, həm ölkəmizdə mövcud olan vətəndaş həmrəyliyinin, dövlət siyasətinin təzahürüdür, dövlət və özəl sektor tərəfindən bu kateqoriyadan olan insanlara qayğının əlamətidir və eyni zamanda, ölkəmizin gücünü göstərir. Çünki siyasət düz, niyyət xoş ola bilər, amma əgər bunu icra etmək üçün imkan yoxdursa, onda niyyət elə niyyət kimi qalacaq".

### "Çünki iqtisadi güc, ilk növbədə, ona görə lazımdır ki, ölkə daha da qüdrətli olsun, öz maraqlarını təmin etsin və insanlar daha da yaxşı yaşasınlar"

"Biz son illər ərzində iqtisadi sahədə o qədər böyük potensial yaratmışıq ki, bu gün bu işləri görə bilirik",- deyən dövlət başçısı onu da bildirib ki, bütün bu işlər böyük potensial hesabına həyata keçirilir: "Əgər bu potensial olmasaydı, biz bu işləri nəyin hesabına görə bilərdik, kim bizə kömək göstərərdi? Təsadüfi deyil ki, müstəqilliyimizin ilk illərində bizim belə imkanlarımız yox idi və məhz buna görə köçkünlər çadırlarda yaşayırdı, şəhid ailələri üçün evlərin təqdim edilməsi, ümumiyyətlə, mümkün deyildi. Bununla paralel olaraq, bizim güclü sosial siyasətimiz var. Çünki iqtisadi güc, ilk növbədə, ona görə lazımdır ki, ölkə daha da qüdrətli olsun, öz maraqlarını təmin etsin və insanlar daha da yaxşı yaşasınlar. Bu gün mənə təqdim edilən məlumat onu göstərir ki, sosial sahədə çox böyük işlər görülür. Keçən il çox böyük işlər görülübdür və bildiyiniz kimi, şəhid ailələrinin müavinəti 20 faiz artırılıb - 250 manatdan 300 manata çatdırılıb. Köçkünlər üçün müavinətlər 50 faiz artırılıb, bəzi müavinətlər 100 faiz artırılıb. Keçən il insanların sosial problemlərinin həlli üçün bir neçə milyard manat vəsait xərclənib. Bu il pandemiya dövründə təqribən 5 milyona yaxın insan dövlət tərəfindən maddi dəstəklə əhatə olunub. Bütün bunlar üçün bizim resurslarımız, vəsaitimiz gedir. Bizim iqtisadi potensialımız olmasa, bunu necə təmin edə bilərik? Pandemiyadan əziyyət çəkən insanlara dövlət tərəfindən çox böyük dəstək göstərilir, yeni xəstəxanalar, modul tipli xəstəxanalar tikilir. Xəstələr dərmanlarla təchiz edilir. Biz bir neçə xarici ölkədən mütəxəssislər, həkimlər cəlb etmişik. Hər belə addım pul tələb edir. Biz bunu edirik, çünki bu, bizim borcumuzdur. Ona görə edə bilirik ki, bizim imkanımız var. İmkanı da biz öz işimizlə, məqsədyönlü fəaliyyətimizlə yaradırıq. Həm xarici siyasətimiz, həm daxili siyasətimiz bir məqsədi güdməlidir ki, ölkə daha da qüdrətli olsun, insanlar daha da yaxşı yaşasınlar. Pensiyaların artırılması - bu il pensiyalar orta hesabla 27 faiz, orta əməkhaqqı 25 faiz artıb. Bütün bunlar bizim siyasətimizi göstərir".

*Ardı Səh. 3*

# Prezident qayğısı, dövlət dəstəyi

## *İlham Əliyev şəhid ailələrinin ən böyük hamisi olduğunu növbəti dəfə nümayiş etdirdi*

Əvvəli Səh. 3

Dövlət başçısı sosial sahədə digər önəmli layihələrin də icra edildiyini, özünüməşğulluq proqramının həyata keçirildiyini, cari ildə bu işlərə 12 min insan cəlb olunacağını, 90 min insan ödənişli ictimai iş yerləri ilə təmin ediləcəyini, beləliklə, bütün bu və digər sosial layihələr, DOST xidmətinin fəaliyyətə başlamasına vəsaitlərin əsas hissəsinin enerji sektorundan gəldiyini bildirib: "Bu da Heydər Əliyev neft siyasətinin uğurlu icrası nəticəsində mümkün olubdur. Təsəvvür edin, əgər bizim neft-qaz kəmərlərimiz olmasaydı və xarici şirkətlər Azərbaycan neft-qaz sənayesinə milyardlarla dollar pul qoymasaydılar, biz indi nəyin hesabına yaşayacaqdıq? Bu səviyyədə yaşaya bilərdikmi? Əlbəttə ki, yox. Öz haqlı işimizi beynəlxalq arenada bu dərəcədə müdafiə edə bilərdikmi? Əlbəttə ki, yox. Ona görə Ulu Öndərin xalq qarşısında xidmətləri arasında bu sahə xüsusi yer tutur. Biz məhz bunun hesabına bu gün valyuta ehtiyatları yaratmışıq, iqtisadiyyatın digər sektorlarına, infrastruktura investisiya qoyuruq. Biznes, özəl sektor buna görə inkişaf edir. Hər kəs bunu bilməlidir ki, bu gün və bundan sonrakı illərdə qeyri-neft sektoru nə qədər inkişaf edirsə-etsin, bizim əsas gəlir mənbəyimiz enerji sektorudur - neft və bu gün qaz. Ona görə bu, bizim üçün strateji əhəmiyyətli sahədir. Əlbəttə, mən çalışıram və bundan sonra da çalışacağam ki, bu sahə inkişaf etsin. Biz yeni neft kontraktlarının, yeni layihələrin işə düşməsi nəticəsində uzunmüddətli inkişafımızı təmin edəcəyik".

### "Bir dənə də olsun sosial layihə ixtisar edilməyib"

Dövlət başçısı onu da bildirib ki, pandemiya dövründə böhranın baş verməsi nəticəsində dünyanın 150 ölkəsi kredit üçün beynəlxalq maliyyə qurumlarına müraciət etdiyini, Azərbaycanın bu siyahıda olmadığını, öz hesabımıza yaşadığını bildirib: "Neftin qiyməti kəskin aşağı düşür, buna baxmayaraq, biz bu işləri görürük. Budur siyasət. Bu, bizim şəhid ailələrinə, şəhidlərin ruhuna olan hörmətimizdir. Amma əfsuslar olsun, ölkə daxilində elələri tapılır ki, neftin qiymətinin düşməsinə sevinirlər. Buna kim sevinir? Mən demişəm, bir daha demək istəyirəm ki, qoy, Azərbaycan xalqı bunu bilsin və unutmasın. Birincisi, Ermənistan sevinir, çünki başa düşürlər ki, əgər bu tənəzzül davamlı olarsa, Azərbaycanın gəlirləri azalacaq, ona görə öz xərclərini bilməyəcək və beləliklə, zəifləyəcək və Ermənistan da bundan faydalanacaq. Buna Ermənistan sevinir, bu, təbiidir. Amma başadüşülən deyil ki, buna Azərbaycanın bəzi vətəndaşları, yaxud da ki, özlərini Azərbaycan vətəndaşı sayanlar sevinir. Bu məlumat artıq ictimailəşib. Özünü milli şura adlandıran, əslində, antimilli qruplaşma kimi fəaliyyət göstərən dəstə görün necə sevinirdi ki, neftin qiyməti 14 dollara düşüb. Bir-birinə "şad xəbər" verirlər, təbrik edirlər və bəziləri deyir ki, hələ tələsməyin, hələ düşəcək, o vaxt sevinəcəyik. Bu, nə deməkdir?! O deməkdir ki, bizim gəlirlərimiz azalacaq, lazımi sayda, həcmdə silah ala bilməyəcəyik. Özü də bu gün artıq dünya silah bazarı çox bahalı bir sahədir və hər bir silahın alınması çox böyük vəsait tələb edir, xüsusilə müasir dövrdə. Bu gün, əgər belə demək mümkündürsə, ağıllı silahlar üstünlüyü təmin edir. O silahlar ki, onların qiyməti çox bahadır və biz onları alırıq, alacağıq. Bizim imkanımız olmasa, onları ala biləcəyikmi?"

### "Mən deyəndə ki, bu, düşmənçilikdir, bu, müxalifətçilik deyil, - müxalifətçilik dövlətə qarşı ola bilməz, - mən tam haqlıyam"

Ölkə Prezidenti özünü "müxalifətçiyəm deyən mənfur dəstənini niyyətlərini aydın şəkildə göstərərək bildirib ki, belələrinin məqsədi ancaq xalqa düşmənçilikdir: "Yəni, bu gün özünü müxalifət adlandıran bu mənfur dəstə nə istəyir? İstəyir ki, Azərbaycan onların dövründəki kimi Ermənistan qarşısında aciz qalsın, gücsüz qalsın, silahsız qalsın. Azərbaycanı torpaqlar əldən gedən dövrdəki hala salmaq istəyirlər. Ona görə Azərbaycan xalqı hər şeyi bilməlidir. Mən deyəndə ki, bu, düşmənçilikdir, bu, müxalifətçilik deyil, - müxalifətçilik dövlətə qarşı ola bilməz, - mən tam haqlıyam".

### "Məhz Azərbaycan alq Cəbhəsinin mənfur hakimiyyətinin yarıtmaz fəaliyyəti, satqınlığı nəticəsində torpaqlarımızı itirmişik"

"Bizi yenə də o qara günlərə qaytarmaq istəyirlər"-deyən dövlət başçısı bu günə kimi itirilə torpaqlarımızın səbəbkarları məhz Azərbaycan Xalq Cəbhəsinin mənfur hakimiyyətinin yarıtmaz fəaliyyəti, satqınçılığı olub: "O günlərə ki, biz o vaxt torpaqlarımızı itirmişik, məhz Azərbaycan Xalq Cəbhəsinin mənfur hakimiyyətinin yarıtmaz fəaliyyəti, satqınlığı nəticəsində torpaqlarımızı itirmişik. Onların hakimiyyət uğrunda gedən mübarizəsi nəticəsində torpaqlarımızı itirmişik. O vaxt torpaqlar əldən gedirdi, amma Azərbaycan Xalq Cəbhəsi burada vətəndaş müharibəsinə start verməşdi, qardaş qanı axıdılırdı. Ermənilər bizim şəhərlərimizi bombalayırdılar, şəhərlərimizi tuturdular, Kəlbəcəri işğal etmişdilər, onlar isə Gəncəni bombalayırdılar, öz şəhərlərini bombalayırdılar, Azərbaycan əsgərlərini əsir götürmüşdülər. Bu, xəyanət deyil, bəs nədir?! Şuşa kimi alınmaz qalanı ermənilərə satan satqınlar xəyanətkar deyil, bəs nədir?! Siz bunları yaxşı bilirsiniz. Məhz o dövrdə siz yaxınlarınızı itirmisiniz, öz sağlamlığınızı itirmisiniz, hər şeyi yaxşı xatırlayırsınız, o qara günləri xatırlayırsınız. Əgər Heydər Əliyev hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan müstəqil ölkə kimi qalacaqdı-qalmayacaqdı, bu, hələ böyük sualdır. Amma bizi yenə də o dövrə qaytarmaq istəyirlər. Bax, budur neftin qiymətinin düşməsinə sevinənlər. Mən demişəm, onlar ermənilərdən də pisdirlər".

### "Bu gün Azərbaycan Xalq Cəbhəsinin gözündə qalan arzusu budur ki, imkanımız olmasın, Azərbaycan yenə də torpaqlar itirsin"

Dövlət başçısı bildirib ki, Ermənistan ordusu Tovuz istiqamətində torpaqlarımızın bir hissəsini zəbt etmək üçün namərdcəsinə, qəflətən artilleriya hücumu təşkil edib və bunun nəticəsində hərbçilərimiz həlak olub, yaralanıb: "Dərhal lazımi tədbirlər görülüb, qisas əməliyyatı keçirilib və qisas əməliyyatı nəticəsində onlarla düşmən məhv edilib. Onların texnikası məhv edilib. Yəqin ki, siz də internetdə o videogörüntüləri görmüsünüz ki, Azərbaycan ordusu sərrast atəşi ilə dəqiqliklə Ermənistanın dayaq məntəqələrini, idarəetmə məntəqələrini və digər hərbi infrastrukturu necə məhv edir! Biz bunu nəyin hesabına edirik? Müasir silahlar hesabına. Bu silahlar Azərbaycanda istehsal olunmur. Bu silahların qiyməti çox yüksəkdir. Bizim maddi imkanlarımız olmasa, onu edə bilməzdik. Bu gün Azərbaycan Xalq Cəbhəsinin gözündə qalan arzusu budur ki, imkanımız olmasın, Azərbaycan yenə də torpaqlar itirsin".

### Prezident İlham Əliyev: "Mənim sözlərimdən heç bir həftə keçməyib, 50 minə yaxın Azərbaycan vətəndaşı Vətəni qorumaq üçün müraciət edib"

"Bu günlərdə gündə bəlkə də minlərlə məktub alıram. Vətəndaşlar öz dəstəyini, həmrəyliyini ifadə edir, orduda xidmət etmək istəyirlər. Mən çıxışımda demişdim ki, orada şüşələri qıranlar orduya yazılsınlar. O günə cəmi 150 nəfər könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin məntəqələrinə gəlmişdi. Amma mənim sözlərimdən heç bir həftə keçməyib, 50 minə yaxın Azərbaycan vətəndaşı - onların mütləq əksəriyyəti gəncdir - Vətəni qorumaq üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edib, öz adını, ünvanını veriblər. Mən onlara təşəkkür edirəm".

Dövlət başçısı qeyd edib ki, budur Azərbaycan xalqı, budur Azərbaycan gənci: "Parlamentin şüşələrini, qapılarını qıran yox. Budur, bu gün Qarabağda ölümə getməyə hazır olan Azərbaycan gənci. Mən bir daha onlara, onların valideynlərinə təşəkkürümü bildirirəm. Onlar xalqımız, dövlətimiz üçün dəyərli övladlar yetişdiriblər".

### "Bizim hərbi qələbəmizi qeyd etmək üçün minlərlə insan küçələrə çıxdı, minlərlə insan dövlətə, orduya dəstək göstərdi"

Dövlət başçısı bildirib ki, bu gözəl mənzərə vətəndaş həmrəyliyinin bir rəmzi idi: "İnsanların coşqusu və ehtirasları çox müsbət istiqamətdə gedirdi. Mən dərhal göstəriş verdim ki, hüquq-mühafizə orqanları, ilk növbədə, Daxili İşlər Nazirliyi asayişi qorumaq üçün bütün tədbirləri görsün. Yəqin, internetdə görmüsünüz ki, insanlarla bərabər, polis əməkdaşları da gedirdilər. Çünki insanlar avtomobil yolu ilə gedirdilər, orada hansısa qəza baş verə bilərdi. Çox nizamlı şəkildə hara gəldilər? Şəhidlər xiyabanına, ora da gəlməli idilər. Orada öz dəstəklərini ifadə etdilər. Ancaq bəzi çirkin ünsürlər, Azərbaycan Xalq Cəbhəsinin üzvləri bundan istifadə edib iğtişaş yaratmağa cəhd etdilər, parlament binasına soxuldular, orada dağıntılar etdilər. Parlament binasının əldə edilmiş qələbə ilə nə bağlantısı var? Bir də ki, bu, qələbədir, bunu hamı etiraf edir. Ermənistan artıq bunu etiraf etməyə məcburdur. Biz bu günlərdə böyük xarici dəstək də görmüşük. Yəni, xalqın iradəsi öz yerini tapmışdır, bunu bayram etmək lazımdır. Amma girib parlamentin binasının divarlarını, kabinetlərini dağıtmaq, sökmək nəyə lazım idi?! Üçüncü mərtəbəyə qədər qalxmışdılar. Kabinetlərin qapılarını, şüşələrini sındırırdılar. Sən gəlmisən burada ali qanunvericilik orqanını dağıtmağa? Bunu kim edə bilər? Düşmən, başqa heç kim. Öz xalqına, öz Vətəninə bağlı olan adam müharibə gedən vaxtda bunu edər? İndi istintaq gedir. Mən istintaqı qabaqlamaq istəmirəm. Heç müdaxilə etmək fikrim də yoxdur. Amma hər şey göz qabağındadır. İndi bəzi görüntülər də ictimailəşdirilib. Görün, bu adamlar hansı miskin və aciz gündədirlər. Hanı bunların "hünəri", hanı bunların "qəhrəmanlığı"? İndi qanun qarşısında cavab verəcəklər. Mən demişəm, bir daha da demək istəyirəm, bu cinayətləri, bu əməlləri törədən heç bir adam məsuliyyətdən qaça bilməyəcək. Bir-bir hamısını tapacağıq və bir-bir tapırıq. Son nəfərinə qədər tapıb məsuliyyətə cəlb edəcəyik. Qoy, xalq onları tanısın. Qoy, onların valideynləri utansınlar - onlar kimi böyüdüblər? Hansı manqurtları böyüdüblər? Ona görə ictimaiyyət bunu bilməlidir. Təkcə onlar yox, onların valideynləri də məsuliyyət daşıyırlar. Təbii ki, bu, mənəvi məsuliyyətdir. Amma qoy, valideynləri də utansınlar. Bu, nəyi xatırladır? Yəqin ki, siz də xatırlayırsınız, 1992-ci ili. Azərbaycan Xalq Cəbhəsinin hərbi çevrilişi parlamentin binasının zəbt edilməsi ilə başlamışdı və orada da başa çatmışdı. O kadrlar da var, yəqin ki, televiziyalar onu göstərəcəklər. O vaxt Azərbaycan hakimiyyəti bunun qabağında dura bilmədi. Çünki cəsarət, qətiyyət göstərmədi, iradə və ən önəmlisi, xalqın dəstəyi yox idi. Ona görə orada bir dəstə adam yığışan kimi, oraya basqın edən kimi hakimiyyət tamamilə dağıldı. Hərə bir tərəfə çəkildi, gizləndi, biri evində, biri harada. Hakimiyyətsizlik hökm sürürdü. Eyni ssenari üzrə bunlar bu dəfə də bunu etməyə çalışırdılar. Eyni ssenari üzrə, parlamentin binasını zəbt etmək, orada öz hakimiyyətini elan etmək. İndi istintaq materialları bunu artıq göstərir. Yenə də deyirəm, qabaqlamaq istəmirəm, Azərbaycan xalqı hər şeyi biləcək. Faktiki olaraq hakimiyyəti qanunsuz yollarla zəbt etmək istəyirdilər. Amma mən dedim, onların fikri o illərə getməsin. İndi Azərbaycan o Azərbaycan deyil. Azərbaycan güclü dövlətdir, Azərbaycanın güclü iqtidarı var, Azərbaycan iqtidarının güclü iradəsi var və ən önəmlisi xalqın dəstəyi var".

### "Türkiyə xalqına mənim məhəbbətim heç kəs üçün sirr deyil"

"Biz bu günlərdə heç vaxt olmadığı qədər, - nə 1990-cı illərin əvvəllərində ki, müharibə gedirdi, nə də başqa dövrdə, - çox güclü beynəlxalq dəstək gördük. Təbii ki, ilk dəstək, ilk qardaşlıq addımı qardaş Türkiyədən gəldi.

Ardı Səh. 5

# Prezident qayğısı, dövlət dəstəyi

## *İlham Əliyev şəhid ailələrinin ən böyük hamisi olduğunu növbəti dəfə nümayiş etdirdi*

Əvvəli Səh. 4

Türkiyə Cümhuriyyətinin hörmətli Prezidenti, mənim qardaşım Rəcəb Tayyib Ərdoğan birmənalı şəkildə Azərbaycanı dəstəklədi, bildirdi ki, Azərbaycanın yanındadır. Bildirdi ki, Azərbaycan və Türkiyə, iki qardaş ölkə hər zaman bir yerdə olacaqlar"- deyən dövlət başçıs bu dəstəyə görə qardaş dövlətə təşəkkürünü bildirib: "Bu günlərdə biz daim təmasdayıq. Mənə telefonla zəng edib, dəstək ifadə edib, şəhidlərimizin həlak olması ilə əlaqədar başsağlığı verib. Deyib ki, biz sona qədər bir yerdəyik. Mən də hər zaman dostum, qardaşım Prezident Rəcəb Tayyib Ərdoğana böyük hörmət göstərmişəm. Türkiyə xalqına mənim məhəbbətim heç kəs üçün sirr deyil. Dəfələrlə demişəm ki, bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın ikinci ölkələr yoxdur. Bu, həm tarixə, bizim ortaq, etnik köklərə, həm də bugünkü siyasətə əsaslanır. Eyni zamanda, Türkiyənin digər yüksək vəzifəli rəsmi şəxsləri, o cümlədən Müdafiə naziri, Xarici İşlər naziri, parlament üzvləri, ictimai xadimlər Azərbaycana birmənalı dəstək göstərmişlər".

### "Gəl bizimlə təkbətək vuruş, təkbətək, baxaq görək bunun axırı nə olacaq"

"Biz Ermənistana başından güclü zərbə vurandan sonra onlar dərhal Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) qaçdılar ki, bunları müdafiə eləsin. Tələb edirdilər ki, KTMT Azərbaycanı qınayan bəyanat versin. Buna nail ola bilmədilər, heç bir bəyanat verilmədi".deynə Azərbaycan Prezidenti onu da deyib ki, sadəcə olaraq, bu hadisə ilə bağlı ümumi sözlərdən ibarət bir şərh verilib, vəssalam: "Ancaq bildirməliyəm ki, KTMT-ya 6 ölkə üzvdür. Onlardan üçü beynəlxalq təşkilatlar yolu ilə Azərbaycana dəstək göstərdilər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında, eyni zamanda, KTMT-da üzv olan Qazaxıstan və Qırğızıstan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası vasitəsilə bizə dəstək oldular. Belarus Qoşulmama Hərəkatında təmsil olunur. O da Qoşulmama Hərəkatının bəyanatına qoşularaq bizə dəstək oldu. Yəni, altı ölkədən üçü Azərbaycanı birmənalı şəkildə dəstəklədi və başqa cür ola bilməzdi. Çünki biz onlarla dostuq, yaxşı günlərdə, çətin günlərdə onlar bizə etibar edə bilərlər. Bu, bir. İkincisi, qoy Ermənistanın qorxaq rəhbərliyi yadına salsın ki, qaçıb yardım almaq istədiyi KTMT-nı necə təhqir etmişdi, heç bir başqa ölkə ilə razılaşma aparmadan onun baş katibini həbs eləmişdi. Belarus nümayəndəsinin KTMT-ya yeni baş katib təyin olunmasının əleyhinə çıxmışdı. Bir il ona imkan vermədi ki, işə başlasın. Bəs nə oldu, o vaxt KTMT pis idi, sən onu təhqir edirdin, indi qaçıb onun ətəyindən yapışırsan. Gəl bizimlə təkbətək vuruş, təkbətək, baxaq görək bunun axırı nə olacaq".

### "Bu gün Azərbaycan beynəlxalq müstəvidə, mənfur qonşu ilə mübarizədə çox böyük gücə çevrilib"

"Bu gün Azərbaycan həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm mənfur qonşu ilə mübarizədə çox böyük bir gücə çevrilib. Bunu biz yaratmışıq, Azərbaycan xalqı yaradıb. Azərbaycan xalqı tam əmin ola bilər ki, Azərbaycanın müstəqilliyi, azadlığı, insanların rifahı və ölkəmizin güclənməsi daim diqqət mərkəzində olacaq"- deyən dövlət başçıs bildirib ki, bizim üçün bir nömrəli milli məsələnin - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllidir: "Mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə demişəm - beynəlxalq təşkilatlarda, beynəlxalq kürsülərdən, ölkə daxilində. Çox da təkrarlamaq istəmirəm, amma bir şeyi istəyirəm Azərbaycan xalqı bilsin ki, bu, milli məsələdir. Biz bu məsələni elə həll etməliyik ki, bu həll Azərbaycan xalqını tam təmin etsin. Hər hansı bir yarımçıq həll bizə lazım deyil. Çünki bu, müvəqqəti olacaq. Yarımçıq, sadəcə, mərhələ ola bilər. Ancaq məsələnin həlli tam olmalıdır. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilməlidir. İşğal edilmiş bütün torpaqlar istisnasız azad edilməlidir. Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara, o cümlədən Şuşaya qayıtmalıdır. Budur mənim siyasətim və bu, siyasətimin bir hissəsidir, o hissəsi ki, bu haqda hələ ki, açıq danışmaq olar".

Ölkəmizin ərazi bütövlüyünün danışıqlar predmeti olmadığını və olmayacağını vurğulayan dövlətimizin başçısı deyib ki, biz öz doğma torpaqlarımıza qayıtmalıyıq və qayıdacağıq. İnşallah, ondan sonra orada sizinlə bir yerdə görüşüb bu günləri də xatırlayacağıq.

**RƏFİQƏ KAMALQIZI**

# Tiqran Keosayan: "Paşinyan Rusiya ilə konstruktiv dialoqa qadir deyil"

***Əlbətdə ki, Marqarita Simonyanın hazırkı Ermənistan hakimiyyətinə ünvanladıqlarının altından özüm də imza atıram. SİAErmənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri Margarita Simonyanın əri Tiqran Keosayan öz Facebook səhifəsində yazıb.***



"Marqaritanın müraciəti dərc edildiyi gündən, Ermənistandan olan insanlar sosial şəbəkələrdə mənə yazırlar. Müxtəlif formalarda mənə and verirlər, hətta tələb edirlər ki, həyat yoldaşımı döyüm, ya da təcili olaraq soyadını dəyişdirim. Bəzi saytlarda bu cəfəngiyat üçün imzalar toplusu da təşkil edirlər. Bu gülməlidir. Eyni zamanda kədərlidir.

Çünki bütün bu cəfəngiyat yalnız bir şeydən, bədnam təxribatçı Paşinyan başda olmaqla bütün sorosçuların xalqıma etdiklərindən danışır. Kimsə bu yazımı Marqaritanı qorumaq üçün yazdığımı düşünürsə, sizə məlumat vermək istəyirəm ki, Rusiya-Ermənistan münasibətlərinin və Paşinyan hakimiyyətinin tamamilə yalan olduğu barədə həqiqətləri cəsarətlə deyən bir qadının müdafiəyə ehtiyacı yoxdur.

Öz postu ilə erməni cəmiyyətini oyandıran Marqarita deməli artıq Ermənistanın gələcəyi üçün çox işlər gördü. Axmaqları xilas etmək mümkün deyil, amma ağıllılar bunu başa düşdülər ki, Paşinyan erməni toplumunu onu müdafiə edən qan damarı sistemindən məhrum etməklə respublikanı özünüməhv yoluna çıxardı. Burada dostluq barədə cəfəngiyatlar da artıq işə yaramayacaq.

Paşinyan Rusiya ilə konstruktiv dialoqa qadir deyil. Hakimiyyəti bunun üçün ələ keçirməyib və indi insanları zombiləşdirir.

Düşünmürəm ki, türk-erməni olmaqla iki cəbhədə gedən müharibə, sağlam düşüncəli insanlarda nikbinlik oyatsın. Ermənistanın özünün gələcək mövcudluğu müzakirə mövzusudur. Ermənistanın indiki rəhbərliyi ilə gələcəyi varmı? Məncə, yox. Həm də bu təkcə mənim firkin deyil", deyə Tiqran Keosayan bildirib.

# Leyla Abdullayeva: ABŞ Dövlət Departamenti kimə və nəyə görə narahatdır, bunu başa düşə bilmirik



2020-ci il iyulun 20-də ABŞ Dövlət Departamenti "ABŞ-ın COVİD-19 pandemiyasına qarşı qlobal mübarizədə demokratiya, yaxşı idarəetmə və insan hüquqlarına dəstəyi" adlı informasiya bülleteni dərc edib və burada Azərbaycana da istinad edilib. Belə ki, Dövlət Departamenti Azərbaycan hakimiyyətini COVİD-19-a qarşı görülən tədbirlərin vətəndaş cəmiyyəti təbliğatını, müxalif səsləri və ya ictimai müzakirələri susdurmaq üçün istifadə edilməməsini təmin etməyə çağırıb.

Trend-in məlumatına görə, məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in sualını cavablandırarkən bildirib ki, Corc Floydun ölümündən sonra hazırda bütün dünya ictimaiyyəti ABŞ-ı bürüyən iğtişaşlar səbəbindən bu ölkədəki vəziyyətə görə narahatdır: "Belə bir şəraitdə ABŞ Dövlət Departamenti kimə və nəyə görə narahatdır, bunu başa düşə bilmirik".

# Ermənilər ABŞ-da həmvətənlərimizə hücum edib

ABŞ-da erməni yalanlarına qarşı etiraz aksiyaları davam edir. SİA-nın məlumatına görə, bu gün Azərbaycanın Los-Anceles şəhərindəki Baş Konsulluğunun binasının önündə həmvətənlərimiz ermənilərlə üz-üzə gəliblər. Yarım milyon erməninin yaşadığı və baş nazir Nikol Paşinyanın "erməni diasporu"nun paytaxtı adlandırdığı Los-Ancelesdə Qarabağ həqiqətlərinin obyektiv şəkildə təqdim olunması yerli erməni lobbisini narahat edib. Həmvətənlərimiz Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğunun binasının önündə aksiya təşkil etməyi planlaşdıran ABŞ-dakı əsas erməni lobbi təşkilatı Amerika Erməni Milli Komitəsinin (ANCA) üzvlərinin önünə canlı sipər çəkiblər.



Aksiya iştirakçıları Ermənistanın işğalçı ölkə olduğunu əks etdirən tarixi faktlar, habelə ermənilərin Azərbaycanın sərhəd rayonu olan Tovuzda təxribat zamanı şəhid olmuş hərbçilərin fotoşəkillərindən ibarət plakatlarla "Terrorçu Ermənistan", "İşğalçılığı dayandır", "Uşaq qatilləri", "Ar olsun Ermənistana!" şüarları səsləndiriblər. Aksiya zamanı ermənilər təxribata əl atıblar. ABŞ poilisi yüzlərlə ermənin toplaşdığı ərazidə təhlükəsizliyi təmin etməyə çalışsa da, aksiya insitentsiz ötüşməyib. Ermənilər həmvətənlərimizə hücum çəkiblər. Qarşıdurma zamanı azərbaycanlılar arasında bir neçə nəfər yaralanıb.

## Azərbaycan mətbuatı öz şərəfli missiyasını layiqincə yerinə yetirir

*YAP İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov*



Milli-mənəvi dəyərlərimizin, dövlətçilik maraqlarımızın qorunmasında müstəsna yeri və rolu olan Azərbaycan milli mətbuatının yaranmasından 145 il ötür. 22 iyul 1875-ci ildə xalqımızın görkəmli ziyalısı Həsən bəy Zərdabinin nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı ötən dövr ərzində öz tarixi missiyasını layiqincə yerinə yetirib, xalqımızın mənafeyinə, dövlətimizin maraqlarına xidmət edən çoxşaxəli, məqsədyönlü fəaliyyəti ilə mütərəqqi nümunə yaradıb. Həsən bəy Zərdabinin "mətbuat cəmiyyətin aynasıdır" tezisini əsas götürən milli mətbuatımız cəmiyyətlə dövlət arasında əlaqələndirici rolunu oynayaraq qabaqcıl ideyaların təbliğində müstəsna xidmətlər göstərib.

Azərbaycan mətbuatının zəngin və şərəfli yol keçərək hazırkı inkişaf səviyyəsinə çatması təsadüfi xarakter daşımır. Müstəqillik dövründə milli mətbuatımızın tərəqqisi müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər müstəqillik dövründə ölkəmizə rəhbərlik etdiyi illərdə digər sahələrlə yanaşı, milli medianın da inkişafına xüsusi diqqət göstərib, Onun rəhbərliyi ilə bu sahədə ardıcıl və səmərəli addımlar atılıb. KİV üzərində senzuranın aradan qaldırılması, "Kütləvi informasiya vasitələri haqqında" yeni qanunun qəbul edilməsi, KİV-in maddi-texniki şəraitinin yaxşılaşdırılması ilə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsi və digər mühüm addımlar milli mətbuatımızın davamlı inkişafını təmin edən fundamental amillər olub. Milli jurnalistikanın inkişafına göstərdiyi xüsusi diqqət və qayğının məntiqi nəticəsi kimi, Ulu Öndər Heydər Əliyev "Jurnalistlərin dostu" seçilib.

Bunlarla yanaşı, Ümummilli Liderimizin layiqli davamçısı olan Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə də milli mətbuatımızın inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib. Qanunvericilik bazası zənginləşdirilib, Azərbaycan mətbuatının maddi-texniki bazası daha da gücləndirilib, jurnalistlərin mənzil-məişət şəraitinin və sosial rifahının yaxşılaşdırılması yönündə davamlı addımlar atılıb, media nümayəndələrinin əməyi daim qiymətləndirilib. Prezident İlham Əliyevin dəfələrlə "Jurnalistlərin dostu" seçilməsi isə Onun milli mətbuatımıza xüsusi diqqət və qayğısının adekvat nəticəsidir.

Hazırda da milli maraqların qorunması istiqamətində öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirən jurnalistlərin əməyi dövlətimizin başçısı İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən yüksək dəyərləndirilir. Prezident İlham Əliyevin "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalaması milli mətbuatımıza göstərilən diqqət və qayğının daha bir nümunəsidir.

Müasir, demokratik ölkə olan Azərbaycanda bütün azadlıqlar, o cümlədən söz, fikir və ifadə azadlığı tam təmin edilib. Ölkəmizdə çoxsaylı mətbuat orqanları, informasiya agentlikləri və portalları, jurnalist təşkilatları qanunlara müvafiq surətdə sərbəst fəaliyyət göstərir, ölkə əhalisinin 85 faizi isə internet istifadəçisidir.

Təqdirəlayiq haldır ki, milli mətbuatımız müharibə şəraitində olan Azərbaycanın dövlətçilik maraqlarının müdafiəsi, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və digər mühüm istiqamətlərdə şərəfli missiyasına sadiqdir və üzərinə düşən vəzifəni müvəffəqiyyətlə yerinə yetirir. Biz bunu son olaraq Ermənistan silahlı qüvvələrinin Ermənistan-Azərbaycan sərhədinin Tovuz istiqamətində törətdiyi təxribat nəticəsində müşahidə edilənlər fonunda da gördük. Düşmənə hərbi müstəvidə olduğu kimi, informasiya cəbhəsində də layiqli cavab verildi, erməni yalanları məharətlə ifşa olundu. 22 iyul - Milli Mətbuat Günü münasibətilə Azərbaycan mətbuatının nümayəndələrini səmimi-qəlbdən təbrik edir, onlara yeni yaradıcılıq uğurları diləyirəm.

## Türkiyə: "Ermənistan işğal altındakı Azərbaycan torpaqlarını tərk etməlidir"



İllərdir Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistanın sülhü pozan və beynəlxalq hüququ heçə endirən hərbi təcavüz cəhdlərini şiddətlə qınayırıq.

AZƏRTAC Türkiyə Prezidenti Administrasiyasının İctimai əlaqələr idarəsinə istinadla xəbər verir ki, bu fikir Türkiyə Milli Təhlükəsizlik Şurasının Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə keçirilən toplantısı ilə bağlı yayılan məlumatda yer alıb. Bildirilir ki, Ermənistan qanunsuz fəaliyyətinə son qoymalı və işğal altındakı Azərbaycan torpaqlarını tərk etməlidir.

Məlumatda, həmçinin qeyd olunur ki, dünyadakı siyasi və iqtisadi vəziyyət yeni formada nizamlanır. Bu çərçivədə Türkiyə bütün sahələrdə güclü hazırlıq həyata keçirmək üçün zəruri olan mexanizmlər yaratmalıdır.

## Ermənistana məxsus daha bir PUA məhv edilib



İyulun 22-si axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri "X-55" taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonunun Ağdam kəndi istiqamətindəki mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Hava Hücumundan Müdafiə bölmələri tərəfindən düşmənin növbəti PUA-sı dərhal aşkar olunaraq məhv edilib. Qeyd edək ki, bu son iki gündə məhv edilən 3-cü düşmən PUA-sıdır.

## Azərbaycan milli mətbuatının 145 illik yubileyinə həsr olunmuş vebinar keçirilib

**İyulun 22-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşəbbüsü ilə Azərbaycan milli mətbuatının 145 illik yubileyinə həsr olunmuş vebinar keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları Ermənistanın Azərbaycanla sərhədin Tovuz rayonu istiqamətində hərbi təxribatının qarşısı alınarkən şəhid olan əsgər və zabitlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Vebinarda çıxış edən KİVDF-nin icraçı direktoru Əhməd İsmayılov bildirib ki, keşməkeşli yol keçmiş milli mətbuatımızın intibah dövrü məhz müstəqillik illərinə təsadüf edir. Ümummilli lider Heydər Əliyev ölkəmizdə müstəqil və güclü dövlətçilik ənənələrini bərqərar edərək mətbuatın demokratik məzmunu üçün lazım olan zəruri şəraiti təmin edib. Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı mətbuatın keyfiyyətcə yeni mərhələyə qədəm qoymasını şərtləndirir.

Ə.İsmayılov KİVDF-nin yeni dövrün çağırışları və tələbləri ilə əlaqədar son aylar ərzində KİV-in inkişafına töhfə verəcək layihələrindən danışıb. Həmçinin bildirib ki, fondun yeni saytı təqdim edilib. Saytda "Azərbaycan milli mətbuat tarixinin virtual inciləri" sərgisi, Həsən bəy Zərdabinin xatirə muzeyinə virtual tur imkanı da yaradılıb.

Vebinarda Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova Azərbaycan mətbuatının 145 illiyi və informasiya-kommunikasiya sahəsində yeni çağırışlar barədə çıxış edib. Vurğulayıb ki, "Əkinçi" qəzetinin maarifçilik, müasirlik və istiqlal məfkurəsi kimi təməl prinsipləri bu gün də aktualdır.

Səadət Yusifova qeyd edib ki, son illər ərzində KİV-in maddi-texniki bazasının möhkəmləndirilməsi üçün bir çox tədbirlər həyata keçirilib. Ulu öndərimiz Heydər Əliyevin mətbuatın inkişafına yönəlmiş siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Dövlətimizin başçısının milli mətbuatın 145 illik yubileyinin keçirilməsi ilə bağlı Sərəncamında KİV-in fəaliyyət prinsipləri və istiqamətləri əksini tapıb.

Diqqətə çatdırılıb ki, fasiləsiz rejimdə informasiya axınının səmərəli idarə edilməsi, "fake news" və "deepfake" texnologiyaları dövründə informasiya təhlükəsizliyinin təmin edilməsi ən aktual məsələlərdən biridir. İnformasiya və hibrid müharibələrin üstünlük təşkil etdiyi hazırkı qlobal gündəm informasiya siyasətinin səmərəli qurulmasını, onun həyata keçirilmə mexanizmlərinin daim yenilənməsini, çevikliyin təmin edilməsini, media və kommunikasiya sahəsində islahatların dərinləşdirilməsini şərtləndirir.

Qeyd olunub ki, Ermənistan Azərbaycanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində hərbi təxribat törətməklə yanaşı, informasiya hücumlarının birgə tətbiqinə əsaslanan hibrid müharibə taktikasından istifadə edib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın son hadisələrlə bağlı xalqa müraciətində münaqişə dövründə informasiya təhlükəsizliyi məsələləri əhatə olunmaqla, sosial mediada müşahidə olunan mənfi təməyüllər dolğun şəkildə təhlil edilib. Müraciətdə hamımıza çağırış edilərək vurğulanır ki, bu gün hər birimizin borcu Azərbaycanın mövqeyini nəinki döyüş meydanında, həm də kompüter qarşısında müdafiə etməkdir.

Tədbirdə çıxış edən Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev milli jurnalistikamız üçün kadrlar hazırlanmasında Jurnalistika fakültəsinin xidmətlərindən danışıb. Onun sözlərinə görə, əksər tanınmış jurnalistlər üçün Bakı Dövlət Universiteti alma materdir. 1969-cu ildə Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsindən ay yarım sonra onun xeyir-duası ilə fəaliyyətə başlamış Jurnalistika fakültəsi peşəkar kadr hazırlığının əsas ağırlığını öz üzərinə götürüb.

"Sovet dövründə Nəsir İmanquliyev, İsrafil Nəzərov, Qılman İlkin, Rza Quliyev, Cümşüd Əzimov və başqaları jurnalist kadrların hazırlanması işinə töhfə veriblər. Həmçinin akademik Məmməd Arif Dadaşzadə, professorlar Mir Cəlal Paşayev, Əli Sultanlı və digər alimlər gələcək jurnalistlərin ilk müəllimləri sırasında olublar və belə müəllimlərin tələbəsi olmaq özü böyük bir şərəf idi", - deyə E.Babayev qeyd edib.

Rektor, həmçinin hazırda Jurnalistika fakültəsində tələbələrə nəzəri biliklərlə yanaşı, təcrübə aşılanması istiqamətində görülən işlərdən danışıb və qeyd edib ki, bu məsələdə universitet həm də KİV-lərdən dəstək gözləyir.

Vebinarda AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov, Mətbuat Şurasının sədri Əflatun Amaşov, Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov, "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, Milli Məclisin deputatları Qənirə Paşayeva, Sevil Mikayılova, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, Real TV-nin baş direktoru Mirşahin Ağayev, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov çıxış ediblər.

Qeyd olunub ki, düşmənin bizə qarşı həm də informasiya müharibəsi apardığı bir vaxtda Azərbaycan həqiqətlərini dünyaya yaymaq, eləcə də erməni yalanlarını ifşa etmək mətbuatımızın bir nömrəli vəzifəsidir. Unutmaq olmaz ki, yaşadığımız informasiya əsrində söz də bir silah, jurnalist də bir əsgərdir. Biz bu məsuliyyəti hamılıqla dərk etməliyik, milli maraqlarımızın müdafiəsində dayanmaq üçün maksimum səfərbər olmalıyıq.

Sərhəddə ağır döyüşlər getdiyi bir vaxtda vətənpərvər insanların Azərbaycan Ordusuna və Ali Baş Komandan İlham Əliyevə öz dəstəyini ifadə etmək üçün Şəhidlər xiyabanına axını xalq-iqtidar birliyini bir daha nümayiş etdirdi. Lakin bununla yanaşı, bir qrup təxribatçı qanunsuz əməllər törətməyə cəhd göstərdi. Biz bir jurnalist və vətəndaş olaraq antimilli qüvvələrə qarşı prinsipial mövqe tutmalı, sözümüzü daha cəsarətlə deməliyik.

Çıxışlarda Azərbaycan mətbuatının inkişaf tarixinə və müasir dövrdə jurnalistikanın aktual problemlərinə də toxunulub. Teleradio, KİV haqqında qanunlarda dövrün tələblərindən irəli gələn dəyişikliklər edilməsi, hərbi jurnalistlər, habelə dünya arenasına çıxa biləcək jurnalist kadrlar hazırlanmasının zəruriliyi bildirilib, bununla bağlı təkliflər irəli sürülüb. Eləcə də kadr hazırlığında jurnalistika ixtisasını tədris edən ali təhsil müəssisələri ilə KİV-lərin əməkdaşlığının vacibliyi qeyd edilib.

Vebinara yekun vuran Ə.İsmayılov Vətənimizin, dövlətimizin və dövlətçiliyimizin inkişafı naminə milli mətbuatımızın bundan sonra da həmrəylik nümayiş etdirəcəyinə əminliyini vurğulayıb.

# Əhməd İsmayılov: “Milli mətbuatımız ötən 145 ildə zəngin və şərəfli yol keçib”



**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) İcraçı direktoru Əhməd İsmayılovun milli mətbuatın 145 illik yubileyi münasibətilə AZƏRTAC-a müsahibəsi.**

***-Əhməd müəllim, Azərbaycan milli mətbuatının 145 yaşı tamam olur. Yubileylə bağlı KİVDF hansı işlərin görülməsini planlaşdırır və görür?***

-Suala görə təşəkkür edir və müsahibənin əvvəlində Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində torpaqlarımızın müdafiəsi uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olan zabit və əsgərlərimizə Allahdan rəhmət diləyirəm. Bildiyiniz kimi, müharibə təkcə cəbhədə, qoşunların təmas xəttində deyil, həmçinin informasiya məkanında da davam etməkdədir. Bu gün cəbhədə böyük şücaət göstərən hərbçilərimizlə yanaşı, informasiya müharibəsində qələmlərinin nə qədər güclü olduğunu bir daha nümayiş etdirən kütləvi informasiya vasitələrinin nümayəndələrinə dərin təşəkkürümü bildirir və hər birini milli mətbuatımızın 145 illik yubileyi münasibətilə təbrik edirəm.

Dövlətimizin başçısı İlham Əliyevin “Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında” 2020-ci il 30 iyun tarixli Sərəncamına uyğun olaraq tədbirlər koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyənləşdirdiyi xüsusi qaydalar nəzərə alınmaqla reallaşdırılır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən iyul ayı ərzində milli mətbuatın 145 illik yubileyi ilə bağlı “Əkinçi”dən başlayaraq bu günümüzədək çap olunan qəzetlərin onlayn sərgisi və Həsən bəy Zərdabinin Zərdab rayonundakı xatirə muzeyinə virtual səyahət təşkil olunur. Sərgi və virtual səyahət KİVDF-nin rəsmi saytı vasitəsilə reallaşır. Bundan əlavə, ötən ayın 23-də Fond tərəfindən milli mətbuatın 145 illiyi münasibətilə fərdi jurnalist yazıları müsabiqəsi elan edilmişdi. Müsabiqə qaliblərinin adları elə bu əlamətdar gündə məlum oldu. İlk dəfə idi ki, televiziya və radio əməkdaşlarına da müsabiqədə iştirak etmək imkanı yaradılmışdır və onlar da fəal iştirakçı oldular, qaliblər sırasına yüksələ bildilər. Fürsətdən istifadə edərək, qalib jurnalistləri təbrik edir, müsabiqəyə göstərdikləri böyük maraq üçün təşəkkürümü bildirirəm.

Qeyd etmək istəyirəm ki, qarşıdakı günlərdə jurnalistlər üçün əcnəbi ekspertlərin iştirakı ilə təlimlər keçiriləcək, bununla da qələm sahiblərinin müxtəlif sahələrdə bilik və bacarıqlarının artırılması istiqamətində daha bir addım atılmış olacaq. Eyni zamanda, vurğulayım ki, sahəvi jurnalistikanın inkişafına nail olunması istiqamətində işlər həyata keçiriləcək. Hazırda bununla bağlı təhlillər aparılır və ümid edirəm ki, yaxın gələcəkdə bu istiqamətdə müsbət nəticəyə nail olacağıq.

Sualınızla bağlı daha bir məqamı qeyd edə bilərəm. 145 illik yubileyə həsr olunmuş, milli mətbuatın inkişaf yolundan bəhs edən sənədli film və videoçarx hazırlanıb. Rəsmi sosial şəbəkə hesablarımız və eyni zamanda, televiziya kanallarında bu gündən etibarən videoçarxımız yayımlanmaqdadır, filmimiz də bu günə töhfə olaraq nümayiş etdiriləcəkdir.

“Azərbaycan çap mətbuatı tarixinin inciləri” adlı xüsusi yubiley jurnalının nəşr edilməsi də nəzərdə tutulan işlər sırasındadır. Bundan əlavə, qəzet redaktorları üçün dünyada çap mediası sahəsində tendensiyalar və idarəetmə mövzularında xarici mütəxəssislərin iştirakı ilə müzakirələrin aparılması da Fondun gündəliyində duran məsələlərdəndir. Qəzetlərin oxunaqlığının artırılmasında dizayn və rəng məsələləri də böyük önəm kəsb edir. Çap mediasının təkliflərinin müzakirəsi üçün redaktorlarla görüşlər keçirilir və bu, davam etdiriləcək. Sevindirici haldır ki, artıq bir sıra redaksiyalar Fondun təklif etdiyi yeniliklərə qoşularaq qəzetlərini rəngli formatda çap etdirirlər. Bundan əlavə qeyd edim ki, dünya təcrübəsi nəzərə alınmaqla, “E-qəzet” formatının tətbiqi barədə də təhlillər aparılır və nəticələrə uyğun surətdə təkliflərimiz olacaqdır.

Vurğulamaq istədiyim daha bir məqam da ondan ibarətdir ki, hazırda onlayn media ilə Fondun əməkdaşlıq imkanları təhlil edilməkdədir. Təhlilin nəticəsinə uyğun olaraq yaxın gələcəkdə maraqlı və səmərəli layihələrlə çıxış etməyi düşünürük.

***-Tarix baxımından 145 il az müddət deyil. Milli mətbuatın keçdiyi inkişaf yoluna nəzər salsaq hansı məqamları qeyd etmək olar?***

-Əminliklə söyləyə bilərik ki, Azərbaycan mətbuatı ötən dövr ərzində zəngin və şərəfli yol keçib. XIX əsrin sonlarında Həsən bəy Zərdabinin yaratdığı “Əkinçi” qəzeti ilə əsası qoyulan milli mətbuatımız həmin dövrdə ağır sınaqlara məruz qalsa da, tutduğu şərəfli yoldan dönmədi. Belə bir şərəfli missiyanın həyata keçirilməsində “Ziya”, “Kəşkül”, “Şərqi-rus”, “İrşad”, “Molla Nəsrəddin” kimi qəzet və jurnallar “Əkinçi”dən başlayan ənənələrə sadiq qalaraq öz mənəvi vəzifələrinin öhdəsindən layiqincə gəldilər. Milli mətbuatımız yarandığı gündən Azərbaycan xalqının ictimai-siyasi həyatında böyük rol oynamağa başladı. Bu, özünü ən çox xalqımızın maarifləndirilməsində, milli şüurun formalaşması və inkişafında, azadlıq arzularının gerçəkləşməsində göstərdi.

XX əsrin sonlarında Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ümummilli liderimiz Heydər Əliyev tərəfindən məlumat və söz azadlığının təmin edilməsi, kütləvi informasiya vasitələrinin hərtərəfli inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Ölkəmizdə senzuranın, mətbuatın üzərindən dövlət nəzarətinin aradan qaldırılması, mütərəqqi qanunvericilik bazasının formalaşdırılması, medianın maddi-texniki bazasının möhkəmləndirilməsi məhz bu dahi şəxsiyyətin adı ilə bağlıdır.

Ümummilli Liderin 2000-ci il 27 mart tarixli Fərmanı ilə ölkəmizdə milli mətbuatın yubileyinin dövlət səviyyəsində qeyd olunması ənənəsinin əsası qoyuldu.

Bu gün müstəqil, güclü, müasir dövrün çağırışlarına cavab verməyi bacaran KİV-lərin inkişafı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin prioritetləri sırasına daxildir. Dövlətimizin başçısının 2008-ci il 31 iyul tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası”nın təsdiq edilməsi, 2009-cu il aprelin 3-də Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması, qəzetlərə maliyyə yardımının ayrılması, milli mətbuatın yaranması gününün təntənəli şəkildə qeyd olunması, öz fəaliyyəti ilə fərqlənən jurnalistlərə fəxri ad və medalların verilməsi, KİV nümayəndələrinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində atılan addımlar dövlətin medianın inkişafı məsələlərinə diqqət və qayğısının əyani təzahürüdür.

***-Əhməd müəllim, qəzetlərə maliyyə yardımının ayrılmasını qeyd etdiniz. 2020-ci ilin ikinci yarısı üçün qəzet redaksiyalarına maliyyə yardımının göstərilməsinə dair Fondun elan etdiyi müsabiqədə bir sıra müsbət dəyişikliklər müşahidə etdik. İstərdik bu barədə məlumat verəsiniz.***

-Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu qəzet redaksiyalarına maliyyə yardımının göstərilməsi üçün iyun ayının 16-da müsabiqə elan etdi. Bundan əvvəlki qaydalara əsasən müsabiqə elan olunduğu günədək son 3 il ərzində müntəzəm nəşr olunan, dövriliyi həftədə 1 dəfədən və birdəfəlik tirajı 2500-3000 nüsxədən az olmayan qəzetlər müsabiqəyə buraxılırdısa, cari qaydalarda bu rəqəmlərdə nəzərəçarpacaq dəyişikliklər yer aldı. Belə ki, yeni qaydalara əsasən müsabiqə elan olunan günədək son 1 il ərzində müntəzəm nəşr olunan və 2000 nüsxəlik birdəfəlik tirajı, 1500 nüsxəlik abunə və satışı olan qəzetlər də artıq müsabiqədə iştirak hüququ qazandılar. Müntəzəm nəşrlə bağlı tələbin 3 ildən 1 ilə endirilməsi, birdəfəlik tiraj və yayımın azaldılması, üstəgəl qəzetlərin birdəfəlik tirajı və yayımına dair tələblərin avqust ayı ərzində 50 faizədək azaldıla bilməsi hüququnun tanınması redaksiyalar üçün yeni imkanlar deməkdir. Müsabiqə yazılarını peşəkar ekspertlər qrupu yoxlayıb və qiymətləndirib. Mövzu seçimində biz qəzetlərə Konsepsiyada əksini tapmış 19 sahə çərçivəsində sərbəstlik vermişdik ki, hansı mövzuya istəyirlərsə, müraciət edə bilsinlər.

Təklif edilən mövzulardan biri də “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” idi. Sevindirici haldır ki, bu mövzuda azərbaycandilli qəzetlərlə yanaşı, rusdilli və ingilisdilli qəzetlər də adlarını qaliblər sırasına yazdıra bildilər. Onu da xüsusi olaraq qeyd etmək istərdim ki, son maliyyələşmə dövrü ilə müqayisədə 1 yox, 2 rusdilli qəzetə maliyyə vəsaiti ayrılıb.

Beləliklə, qaydalara uyğun olaraq “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası”nda təsbit olunmuş sahələr üzrə layihə-təkliflər təqdim etmiş qəzet redaksiyalarının müraciətlərinə baxıldı və 18 qəzet qeyd olunan sahələr üzrə qalib elan olundu.

***- Sizin fikrinizcə, bu gün mediamız qarşısında duran vəzifələri yerinə yetirə bilirmi?***

- Qeyd edim ki, media hər zaman ictimai rəyin formalaşmasında mühüm rol oynayıb və bu gün də bu belədir. Düşünürəm ki, KİV nümayəndələri yeni, dəqiq informasiya axtarışında hər zaman həvəsli olmalı, müasir trendləri izləməli, onları tətbiq etməli, beynəlxalq informasiya məkanında öz mövqelərini gücləndirməli, lakin bununla yanaşı, dövlətimizin maraqlarını daim nəzərə almalı və müdafiə etməlidirlər.

Xalqımızın dəyərli ziyalıları, mütəfəkkirləri milli şüurun və mədəniyyətin formalaşmasına, inkişafına məhz mətbuat vasitəsi ilə güclü təkan veriblər. Bu gün ölkəmizdə televiziya, radio, informasiya agentliyi, xəbər portalı, qəzet və jurnallarda fəaliyyət göstərən minlərlə jurnalist hər gün ölkə ictimaiyyətinin maarifləndirilməsi istiqamətində yorulmadan, böyük həvəslə çalışır.

Azərbaycan Prezidentin bugünkü sərəncamları ilə 138 KİV əməkdaşının mükafatlandırılması, mediaya dəstək məqsədilə əlavə vəsaitin ayrılması dövlətimizin başçısının və dövlətimizin jurnalist əməyinə, ümumilikdə mediaya verdiyi yüksək qiymətin bariz nümunəsidir.

## Bəhruz Quliyev: “Prezident İlham Əliyev ölkəmizdə azad sözün hamisidir”



“Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin ölkədə azad mətbuatın inkişafı sahəsində müəyyən etdiyi siyasəti uğurla davam etdirir. Jurnalistlərlə səmimi münasibətlər, daim onlarla ünsiyyət qurması bu reallığın təzahürüdür”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri yap.org.az saytına müsahibəsində “SƏS” Media Qrupunun rəhbəri Bəhruz Quliyev deyib.

B.Quliyev bildirib ki, mətbuatımızın qabaqcıl və mütərəqqi ənənələrə əsaslanmaqla, xalqımızın tarixi-milli xüsusiyyətlərini qorumaqla inkişaf etməsini vacib sayan dövlətimizin başçısı, cənab Prezident İlham Əliyev söz və mətbuat azadlığını demokratiyanın fundamental şərti hesab edir, bu şərtin əsaslarını mükəmməlliklə təhlilini aparır. O, bu barədə fikirlərini bölüşərkən vurğulayıb ki, Azərbaycanda aparılan siyasi islahatların əsas mənası, məqsədi ondan ibarətdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkədə yaşayan hər bir vətəndaş bütün azadlıqlardan istifadə etsin: “Azərbaycanda o cümlədən mətbuat azadlığı da mövcuddur. Biz bu məsələdə çox ciddi addımlar atırıq. Söz azadlığının, mətbuat azadlığının təmin olunması bizim prioritet məsələmizdir və deyə bilərəm ki, Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur”.

“Daha bir məqam isə budur ki, Azərbaycan mətbuatı üçün digər böyük hadisələrdən biri də jurnalistlər üçün yaşayış evlərinin tikintisidir. Bu isə mətbuat işçilərinin məişət problemlərinin də diqqətdə olduğunun göstəricisidir. Bəli, məhz Prezident İlham Əliyev ölkəmizdə azad sözün hamisidir. Dövlətimizin başçısı bunu Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu tarixi, əbədi və uğurlu ənənələri davam etdirməklə, mətbuat orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, azad medianın təmin edilməsi, jurnalist əməyinin qiymətləndirilməsi istiqamətində atdığı addımlarla təsdiq edib. Odur ki, Azərbaycan mətbuatı da, Azərbaycan jurnalisti də, haqlı olaraq ölkə Prezidentini - cənab İlham Əliyevi özünün dostu hesab edir və bundan sonra da edəcək.

Azərbaycan xalqının qədim ədəbi və mədəni irsə, mətbu ənənələrə malik olması demokratik milli jurnalistikanın gələcək inkişafı üçün möhkəm zəmin yaradıb. Söz yox ki, biz mətbuat işçiləri də öz vəzifəmizin öhdəsindən layiqincə gəlib, milli mətbuatımızı dövlətçilik konsepsiyası əsasında uğurlarımızı davam etdirəcəyik”-deyə, B.Quliyev qeyd edib.

# Vətəndaş məktubları: "Cənab siyasətiniz xalqımızı daha böyü

***Azərbaycan vətəndaşları Prezident İlham Əliyevə minnətdarlıq məktubları ünvanlamaqda davam edirlər. AZƏRTAC Prezident saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.***

Lənkəran şəhərindən Aysel Hüseynova yazır: "Hörmətli cənab Prezident, Siz zamanın sınağından ləyaqətlə çıxmış bir lidersiniz. Bu sınaqlarda xalq Sizin arxanızda, Siz onun yanında olmusunuz. Haqq mübarizəmizdə də qəsbkar, xəyanətkar erməni faşistləri zaman-zaman Sizin rəhbərliyinizlə layiqli cavablarını alıblar. Biz Sizin komandanlığınız, rəhbərliyinizlə torpaqlarımızı mənfur düşməndən azad edəcək, bu mübarizədə qalib gələcəyik".

Abşeron rayonundan Şahnaz Əliyeva: "Hörmətli cənab Prezident, yaşanan son hadisələr bir vətəndaş kimi hər birimizi narahat etdi. Amma bütün narahatlıqlara baxmayaraq, qüdrətli ordumuz düşmənə öz layiqli cavabını verdi. Sizin qətiyyətli çıxışlarınız, düşmənə verdiyiniz layiqli cavablar bizdə qürur hissi oyadır. Biz Sizinlə qürur duyuruq. Atdığınız hər bir addımı dəstəkləyirik. İnanırıq ki, bu gün həsrətlə danışdığımız Qarabağımız tezliklə bizim sevinc göz yaşlarımıza şahid olacaq. Tezliklə qələbə müjdəsi eşidəcəyik. Biz Sizə güvənirik. Allah Sizi və ailənizi qorusun".

Naftalan şəhərindən Rahim Muradov: "Hörmətli cənab Prezident, bu gün hər bir Azərbaycan gənci Azərbaycan Ordusu ilə fəxr edə bilər. Bu günlərdə qəhrəman Azərbaycan Ordusu erməni təxribatına layiqli cavab verərək, düşmənə sarsıdıcı zərbələr vurmuşdur. Azərbaycan ordusu Ermənistanın uzun illər öz ordusu haqqında uydurduğu miflərin yalan olduğunu bir daha sübut etdi. Cənab Ali Baş Komandan, güclü Azərbaycan naminə biz gənclər Sizinləyik, əmrinizi gözləyirik".

Cəlilabad rayonunun sakini Elgün Kərimovun məktubunda deyilir: "Hörmətli cənab Prezident, məlum olduğu kimi, Azərbaycan xalqı hər zaman erməni təxribatlarının şahidi olmuşdur. Mənfur düşmən bu gün də təxribatlarını davam etdirməkdədir. Belə ki, Ermənistan silahlı qüvvələrinin bölmələrinin iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində artilleriya qurğularından istifadə etməklə atəşkəs rejimini kobud şəkildə pozması açıq-aşkar təxribatdır. Azərbaycan-Ermənistan sərhədində baş



verən təxribatın qarşısı Sizin qətiyyətiniz, ordumuzun əzmi sayəsində həm alındı, həm də düşməni qorxuya saldıq. Vətənimizin mərd oğulları onların öhdəsindən gəlməyi bacardı. Azərbaycan xalqı Sizə inanır. Sizin sayənizdə işğal olunmuş ərazilər qısa zamanda geri alınacaq".

Füzuli rayonunun Aşağı Yağlıvənd kəndindən Elnur Səfərov: "Hörmətli cənab Prezident, son günlər baş verən hadisələrdən sonra Azərbaycan xalqının Sizin yanınızda olduğunun və apardığınız siyasəti dəstəklədiyinin bir daha şahidi oldum. Bilirik ki, ordumuzun inkişafı həmişə Sizin siyasətinizin əsas hissəsini təşkil etmişdir. Vaxtında verdiyiniz tapşırıqlar nəticəsində güclənən ordumuzun düşmənə vurduğu zərbələr bir vətəndaş kimi məni çox qürurlandırdı. Biz ordumuza güvənərək Füzuli rayonunda ata-baba yurdumuzda rahatlıqla yaşayırıq. Aprel döyüşlərindən sonra işğaldan azad olunan Lələtəpə yüksəkliyində dalğalanan bayrağımız Azərbaycan Ordusunun inkişafının düzgün əllərdə olduğunu bir daha göstərdi. Sizin məcburi köçkünlərin, şəhid ailələrinin, müharibə veteranları və əlillərinin həyat şəraitinin yaxşılaşdırılması üçün gördüyünüz işlər təqdirəlayiqdir. Müharibədən əziyyət çəkən hər bir vətəndaş Sizin diqqət və qayğınızı hər zaman hiss edir. Mən bir gənc vətəndaş, məcburi köçkün kimi Sizin apardığınız siyasəti həmişə qürurla dəstəkləmişəm. Verəcəyiniz əmrə uyğun olaraq, ehtiyatda olan bir əsgər kimi doğma torpaqlarımızın işğaldan azad olunması üçün ordumuzun sıralarına qoşulmağa və Vətənimin azadlığı naminə canımdan keçməyə hazıram".

Abşeron rayonunun Masazır kəndindən Elçin Sultanov: "Hörmətli cənab Prezident, Ermənistanla sərhədin Tovuz rayonu istiqamətində baş verən hadisələr xalqla Sizin birliyinizi yenidən təsdiq etdi. Məhz Sizin liderliyinizlə Azərbaycan dövlətinin nüfuzu getdikcə artır, beynəlxalq təşəbbüslərimiz dünya miqyasında bəyənilir. Cənab Prezident, mən internat məktəbinin məzunuyam. "Məzunlar Evi"ndə yaşayıram, dövlətimizin qayğısı ilə əhatə olunmuşam. Doğma yurduma sevgimi, Sizə sədaqətimi nümayiş etdirmək, Vətənə olan borcumu qaytarmaq üçün hərbi xidmətə getmək, düşmənləri doğma torpaqlardan qovmaq istəyirəm. Buna görə də Sizin hər bir əmrinizə hazır olduğumu bildirirəm".

Bakı şəhərinin sakini Məhərrəm Abdullayev: "Möhtərəm Prezident, humanist rəhbər, müdrik Ali Baş Komandan, Azərbaycan dövlətinin və xalqının növbəti dəfə bəxti gətirdi ki, ulu öndər Heydər Əliyevdən sonra bizə uzaqgörən siyasəti, müdrik qərarları, xalqına yaxın olmağı ilə dünya liderlərindən fərqlənən bir lider rəhbərlik etdi. Hər addımında zəfər duyulan, "Mən hər bir azərbaycanlının Prezidentiyəm" söyləyən rəhbərin xalqını növbəti qələbələrə doğru aparacağına ürəkdən inanırıq və Sizi hər zaman dəstəkləyirik. Azərbaycan heç zaman bu qədər güclü olmamışdır və bu qüdrətli ölkəmizin son illər əldə etdiyi nailiyyətlər, qazandığı uğurlar Sizin adınızla bağlıdır. Bizə məhz Sizin kimi Vətənə ürəkdən bağlı olan, novator, enerjili, qətiyyətli, müdrik və humanist bir lider lazımdır. Azərbaycanımızı işıqlı gələcəyə doğru inamla aparın, möhtərəm Prezident, cənab Ali Baş Komandan. Allah bu yolda yardımçınız olsun! Allah xalqımızı, Sizi və ailənizi qorusun!".

Lənkəran şəhərindən Ağakişi Baloğlanlı: "Möhtərəm cənab Prezident, son günlərdə baş verən düşmən təxribatı xalqımızı hiddətləndirmiş, düşmənə olan nifrətimizi daha da artırmışdır. İnanırıq ki, Sizin məqsədyönlü siyasətiniz xalqımızı daha böyük uğurlara, zəfərlərə aparacaq. Dövlətimizin yürütdüyü siyasət bir gün bizə o qələbəni, o sevinci yaşadacaq. Bu müqəddəs yolda həmrəyliyimiz, birliyimiz qarşısında düşmən diz çökəcək".

Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsindən Aydan Cəfərova: "Hörmətli cənab Prezident, torpaqlarımızın azadlığı uğrunda döyüşmək bizə şərəfdir. Azərbaycan tarixinin şanlı səhifələri igidlərlə yanaşı, qəhrəman qadınlarımız tərəfindən də yazılır. Bu qəhrəmanlıq salnaməmizə bu gün də yeni-yeni səhifələr əlavə edilir. Erməni qəsbkarları torpaqlarımıza təcavüz etməyə başladıqları andan bu günədək Azərbaycanın qəhrəman qızları igid oğullarımızla çiyin-çiyinə torpaqlarımızın bütövlüyü uğrunda mübarizə aparırlar. Mən də yüz minlərlə Azərbaycan gənci kimi, Vətən uğrunda döyüşə hazıram, səfərbərlik əmrinizi gözləyirəm. Hamımız inanırıq ki, bu mənfur düşməni mütləq yenəcək, işğal olunmuş torpaqlarımızı azad edəcək və qələbə marşları yazacağıq".

Goranboy rayonunun sakini Mehparə Mustafayeva: "Hörmətli cənab Prezident, Sizin uğurlu siyasətinizin bariz nümunəsidir ki, Azərbaycanda sabitlik hökm sürür, yoluxma halları getdikcə azalır. Bu günlərdə Sizin və Mehriban xanımın xalqımıza böyük qayğınızın və dəstəyinizin yenidən şahidi olduq. Allah Sizi qorusun. Ali dövləti fəaliyyətinizdə Sizə yeni uğurlar arzu edirik. Hazırda bütün dünya koronavirusla mübarizə aparır. Hətta ən böyük dövlətlər belə bu pandemiyaya qalib gələ bilmir. İtkilərimizin az olması, xəstəliklə səmərəli mübarizə aparmağımız məni sevindirir. Sizə sonsuz minnətdarlığımı bildirirəm, əziz Prezidentim".

Qubadlı rayonundan Xəyalə Yusifova: "Möhtərəm cənab Prezident, Sizin Ali Baş Komandan kimi fəaliyyətiniz, ordumuzun bugünkü potensial gücü, əsgər və zabitlərimizin döyüş qabiliyyəti və vətənpərvər ruhu, dövlətimizdə xalq-iqtidar birliyi, xüsusən də Sizə inam və sevgi bizi qürurlandırır. Sizin mötəbər beynəlxalq təşkilatlardakı qətiyyətli çıxışlarınız və söz sahibi olmağınız, dünya siyasətçiləri arasındakı xüsusi yeriniz, böyük dövlətlərin başçılarının Sizin şəxsinizə xüsusi hörməti hamımızı sevindirir. Cənab Prezidentim, bu günlərdə dövlət sərhədimizdə atəşkəsin Ermənistan təxribatçıları tərəfindən pozulması zamanı Sizin ətrafınızda bir yumruq kimi birləşərək təxribatçılara layiqli cavab verdik. Uğurlarımız daimi olsun".

Lənkəran rayonunun Zövlə kəndindən Ələskər Şükürov: "Hörmətli cənab Prezident, mən iki zabit atasıyam. Yaşım 65 olsa da, ürəyim ön cəbhədə olmaq, düşmənləri yurdumuzdan qovub çıxarmaq, Qələbə bayrağını dalğalandırmaq arzusu ilə döyünür. O gün mütləq gələcək! O zaman bütün şəhidlərimizin, canını Vətən yolunda fəda etmiş qəhrəmanlarımızın ruhları ağ göyərçinə dönüb Vətən göylərində Qələbə nəğməsi oxuyacaq. Tovuz döyüşləri göstərdi ki, xalqımız Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış münaqişənin həlli, ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, erməni təxribatlarının qarşısının alınması istiqamətində Sizin yürütdüyünüz siyasəti qətiyyətlə dəstəkləyir. Əli silah tutan vətənpərvər insanlar bu gün özünü Vətənin əsgəri hesab edir və düşmənin ölkəmizə uzanan qanlı əllərini kəsib atmağa ha-

# Prezident, Sizin məqsədyönlü k uğurlara, zəfərlərə aparacaq”

zırdır”.

Goranboy rayonunun Qarasüleymanlı kəndindən Tahirə Cəlilova: “Möhtərəm cənab Prezident, dünyada yayılmış koronavirus pandemiyası ölkəmizdən də yan keçmədi. Sizin ölkəmizdə epidemiyanın geniş yayılmasının qarşısının alınması ilə bağlı verdiyiniz tapşırıqlar layiqincə yerinə yetirilir, vətəndaşlara diqqət və qayğı göstərilir. Bir vətəndaş olaraq əminəm ki, Sizin müdrik rəhbərliyinizlə biz tezliklə bu bəladan xilas olacağıq. İnsanların sağlamlığının qorunması məqsədilə bir çox sahələrdə çalışanların evdən işləmələrinə şərait yaradılıb. Bu təşəbbüs də dövlət tərəfindən irəli sürüldü, hətta işə gəlməyən işçilərin əməkhaqları saxlanıldı. İnanıram ki, Sizin müdrik qərarlarınızla biz bu bəladan minimum zərərlə qurtulacağıq. Sizinlə fəxr edirəm, Sizə dəstəyim misilsizdir. Bu gün dövlətin insanlardan ən böyük tələbi



evdə qalmaqdır və yaradılan şəraitdə bu, heç də çətin deyil. Allah Sizi və xalqımızı qorusun! Biz birlikdə güclüyük!”.

Lənkəran rayonunun Separadi kəndindən Gülnar Gülverdiyeva: “Hörmətli cənab Ali Baş Komandan, Azərbaycanın Ermənistanla sərhədində təcavüzkar erməni birləşmələri tərəfindən iyulun 12-də törədilən təxribata qəhrəman ordu hissələrimizin layiqli cavab verməsi insanlarımızda böyük ruh yüksəkliyi yaratdı. Bu günlər Azərbaycan Ordusunun təxribat törədən, dinc sakinləri hədəfə alan azğın düşmən üzərində şanlı qələbəsi kimi tarixə düşdü və xalqımızın heç vaxt erməni işğalı ilə barışmayacağını, ordumuzun isə döyüşə hazır olduğunu göstərdi. Cənab Prezident, biz gənclər Sizə və şanlı ordumuza güvənirik. Biz bir yerdə güclüyük. Sizin Vətən uğrunda mübarizəniz müqəddəsdir. Allah Sizə yar olsun!”.

## Jalə Əliyeva: Azərbaycan daha bir diplomatik uğura imza atdı

***Son 27 ildə, xüsusilə də Prezident İlham Əliyevin 17 illik hakimiyyəti dövründə aparılan düzgün, uzaqgörən, balanslı, tarazlı xarici siyasət kursu öz bəhrəsini verir. ABŞ Konqresi nəhayət Azərbaycan, Qarabağ həqiqətlərini qəbul və etiraf etdi, Ermənistanın işğalçı və təcavüzkar ölkə olduğunu rəsmən ortaya qoydu.***



Belə ki, ABŞ Konqresinin Qaydalar komitəsində Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktını dövlət səviyyəsində ilk dəfə tanıyan 296 saylı düzəliş qəbul olundu. Düzəlişin mətnində deyilir ki, ABŞ-ın Dövlət katibi Müdafiə katibi ilə birlikdə Azərbaycanın (o cümlədən Ukrayna, Gürcüstan və Moldova) xarici qüvvələr tərəfindən 1991-ci ildən bəri qeyri-qanuni işğal olunmuş ərazilərində öldürülmüş və məcburi köçkün düşmüş insanların sayı barədə Konqresin müvafiq komitəsinə hesabat verməlidir. Bəli, bu 32 ildən bu yana davam edən Ermənistan-Azərbaycan münaqişəsinin mövcudluğu dövründə əldə edilən ən böyük uğurlardandır. 1993-cü ildə BMT Təhlükəsizlik Şurasında, 2000-ci illərin ortalarında Avropa Şurası Parlament Assambleyasında, o cümlədən son illərdə Avropa Parlamentində qəbul edilən qətnamələrdən sonra bu, ən önəmli siyasi-diplomatik zəfərlərdəndir.

Bu fikirləri AZƏRTAC-a Milli Məclisin deputatı, professor Jalə Əliyeva bildirib.

“Hesab edirəm ki, bunun mütləq davamı da gələcək, ABŞ-dan sonra digər həmsədr ölkələr də öz qanunverici orqanları səviyyəsində Ermənistanın işğalçı və təcavüzkar dövlət olduğunu etiraf edən və tanıyan qərarlar, qətnamələr qəbul edəcəklər. Hər ikisində də nə qədər böyük və güclü erməni lobbisi və diasporu olsa da, yayınmaq, sonadək qaçmaq, gizlənmək mümkün olmayacaq. Necə ki, dünyada erməni lobbisi və diasporunun əsas dayaqlarından olan ABŞ-da qaçmaq, yayınmaq mümkün olmadı. Sonda həqiqət, ədalət etiraf edildi, rəsmi şəkildə bəyan olundu. Ona görə bu, mütləq digər həmsədr dövlətlərə, o cümlədən digər beynəlxalq təşkilatlara, aparıcı ölkələrə də təsirsiz ötüşməyəcək. Bu, mütləq baş verəcək və verməlidir. Valday, Aşqabad, Qoşulmama Hərəkatı və Türk Şurasının Bakı sammitləri, Münhen Təhlükəsizlik Konfransı, Şərq Tərəfdaşlığının sonuncu toplantısı, Azərbaycan dövlətinin, dövlət başçısının yenilməz iradəsi hər kəsin reallıqları, həqiqətləri qəbul və etiraf etməsi ilə nəticələnməli idi və ilkin nəticə - böyük uğur da göz önündədir. Artıq erməni yalanları, böhtanları, timsah göz yaşları işə keçmir, heç nə yaramır. Xüsusilə, 12 iyul təxribatı bardaqda daşan son damla oldu. Ermənilərin, Ermənistanın nazı ilə oynayanların əksəriyyəti bir daha Ermənistanın əsl üzünü gördü, anladı, onun nəinki Azərbaycan, Qafqaz bölgəsi üçün, bütövlükdə dünya üçün bir təhdid olduğunu açıq şəkildə dərk etdi. Hərb meydanında uduzan Ermənistan son illərdə özünün ən böyük siyasi-diplomatik-hüquqi zərbəsini də aldı. Bəli, bütün cəbhələrdə, bütün səngərlərdə, bütün meydanlarda zəfərlər, qələbələr bizimdir və bizim olacaq. Çünki biz haqq işi uğrunda savaşırıq, haqq mübarizəsi aparırıq. Artıq heç kim və heç nə bizim qarşımızı ala, yarı yolda dayandıra bilməz və bilməyəcək. Biz illərdir həsrətini çəkdiyimiz günə - qəti qələbəyə, zəfərə çox tezliklə nail olacağıq. Bu, mütləqdir və gerçəkdir”, - deyə Jalə Əliyeva qeyd edib.

## “Xalq öz Prezidentini birmənalı şəkildə dəstəkləyir”

“Azərbaycan cəmiyyəti inanır ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında yüksək hərbi-vətənpərvərlik ruhu olan güclü Azərbaycan Ordusu düşmənin təxribatına bundan sonra da layiqli cavab verəcək. Birliyimiz, həmrəyliyimiz sayəsində Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, işğaldan azad olunan torpaqlarımızda üçrəngli bayrağımız dalğalanacaq. Görünür ki, bu reallıq Ermənistan və ona havadarlıq edənləri, habelə daxilimizdəki “5-ci kolon”u möhkəm narahat edib”. Bunu SİA-ya millət vəkili Elman Nəsirov deyib. Deputatın sözlərinə görə, iyulun 14-də gecə radələrində bir qrup təxribatçının Milli Məclisin binasına qeyri-qanuni müdaxiləsi, antidövlət şüarlar səsləndirməsi və qanunverici orqanın əmlakına zərər vurması təsadüfi hadisə olmayıb, öncədən planlaşdırılmış təxribatın nəticəsidir: “Sərhəddə yaşanan son hadisələrlə bağlı orduya və dövlətə dəstəyini, düşmənə isə nifrətini ifadə etmək üçün yürüşə çıxan insanların sıralarına öncədən hazırlaşdırılmış və təlim almış təxribatçılar yerləşdirilib. Məqsəd Azərbaycanı 1990-cı illərin ssenarisi üzrə məhvə sürükləmək, ölkədə hakimiyyətsizlik mühiti formalaşdırmaq və bununla da, yeni ərazi işğallarına şərait yaratmaq perspektivdə isə vətəndaş müharibəsini labüd etməkdən ibarətdir.



Amma Azərbaycan polisinin operativ reaksiyası nəticəsində təxribatçılar ərazidən kənarlaşdırıldılar. Onların kimliyi müəyyənləşdirilir. Heç kəs məsuliyyətdən kənarda qalmayacaq. Cənab Prezident Nazirlər Kabinetinin iclasında vurğuladı ki, söhbət Vətəndən, torpaqdan, ümummilli məsələlərdən gedəndə heç bir güzəştdən söhbət gedə bilməz. Bu təxribatda günahı olan hər kəs hüquqi müstəvidə layiqli cəzasını alacaq. Beləliklə, Prezident İlham Əliyevin Nazirlər Kabinetinin iclasında söylədiyi fikirlər bir daha göstərdi ki, bu gün Azərbaycanda səfərbər olunmuş cəmiyyət var, həmrəylik hökm sürür, xalq-hakimiyyət birliyi monolitdir. Xalq öz Prezidentini birmənalı şəkildə dəstəkləyir və Azərbaycan Ordusu Ali Baş Komandanın qarşıya qoyduğu istənilən vəzifənin öhdəsindən gəlməyə hazırdır”.

# "Son hadisələr beynəlxalq vasitəçilərə status-kvonun saxlanmasının çox təhlükəli olduğunu xatırlatmalıdır"

***Milli Məclisin deputatı Azay Quliyev Berlin TV-yə müsahibəsində Ermənistanın Azərbaycan-Ermənistan sərhədində, Tovuz istiqamətində törətdiyi təxribatlarla bağlı sualları cavablandırıb.***



AZƏRTAC xəbər verir ki, A.Quliyev ermənilərin bu hərbi təxribatlarının səbəblərini qeyd edib. O deyib ki, əvvəla, Ermənistan hər cür vasitədən istifadə edərək sülh danışıqlarına mane olmağa və yeni münaqişə ocağı yaratmağa çalışaraq status-kvonu qorumaq üçün vəziyyəti daha da mürəkkəbləşdirməyə cəhd edir. Çünki münaqişə zonası olan işğal olunmuş Dağlıq Qarabağ bölgəsindən yüzlərlə kilometr uzaqlıqda yerləşən Tovuz bölgəsinə hücum üçün heç bir əsaslı səbəb tapmaq mümkün deyil. İkincisi, Ermənistan bu təxribatı törətməklə açıq şəkildə qitələrarası təbii qaz və neft boru kəmərləri və digər strateji iqtisadi infrastrukturları təhdid etmək məqsədi güdürdü. Ermənistanın Tovuz bölgəsini hədəfə almasının məqsədi bölgəyə və oradakı strateji yüksəkliklərə nəzarəti ələ keçirmək və beləliklə, bu regiondan keçən nəqliyyat və enerji dəhlizlərinin funksionallığına təhdid yaratmaq idi. Ermənistan bu əsassız hərbi əməliyyatları başlatmaqla həm də Rusiyanın aparıcı qüvvə olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını məsələyə cəlb etmək istədi. Bu təşkilatın rasional yanaşması sayəsində Ermənistan müttəfiqləri tərəfindən heç bir dəstək tapmadı.

Deputat bildirib ki, baş nazir Nikol Paşinyan Ermənistandakı dərin sosial-iqtisadi və siyasi böhran səbəbindən çox çətin günlərini yaşayır. Ermənistandakı inqilabi diktaturanın verdiyi vədlərin heç biri gerçəkləşmədi və xalq indiki hakimiyyətdən çox narazıdır. Yaratdıqları diktatura rejimini xilas etmək üçün Paşinyan hökuməti siyasi rəqiblərinə və parlament üzvlərinə qarşı konstitusiyaya zidd və repressiv üsullar tətbiq edir, qanunsuz cinayət təqibləri və kütləvi həbslər həyata keçirərək dövlət hakimiyyətinin hər 3 qolunu mənimsəyib. Buna görə də Paşinyanın Ermənistan xalqının diqqətini ciddi daxili problemlərdən yayındırmaq üçün bu hərbi əməliyyatları başladaraq insanları "xarici düşmənə qarşı" mübarizə ətrafında birləşdirməyə çalışması ehtimalı kifayət qədər realdır. Bundan başqa, Ermənistan bu təxribatla Azərbaycanın BMT Baş Assambleyasının koronavirus pandemiyasına qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyasının çağırılmasına dair təşəbbüsünü açıq-aşkar şəkildə sarsıtmaq məqsədini güdürdü.

Beləliklə, Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları bir daha sübut edir ki, Ermənistanın BMT Baş katibinin COVID-19 pandemiyası ilə əlaqədar qlobal atəşkəs çağırışını dəstəkləyən bəyanatları siyasi riyakarlıqdan başqa bir şey deyil.

Azay Quliyev qeyd edib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin indiyədək həll edilməməsinin birinci səbəbi Ermənistanın indiyə kimi cəzasız qalmasıdır. Hamıya məlumdur ki, Ermənistan beynəlxalq aləm tərəfindən təcavüzkar və işğalçı ölkə kimi tanınıb. BMT TŞ-nin erməni işğalçı qüvvələrinin Azərbaycanın bütün işğal olunmuş ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə baxmayaraq, bu ölkə Azərbaycan ərazilərinin 20 faizini işğal altında saxlamaqda davam edir. BMT TŞ-nin qətnamələri hüquqi baxımdan məcburidir və onların icrası hər bir dövlətin öhdəliyidir, amma Ermənistan 27 ildir ki, bu 4 qətnamənin tələblərinin yerinə yetirilməməsinə görə məsuliyyətə cəlb olunmayıb. Beynəlxalq təcrübəyə və BMT Nizamnaməsinin müvafiq müddəalarına görə, hər hansı bir üzv ölkə TŞ-nin qətnamələrinə hörmət etmirsə, bu ölkə mütləq məsuliyyət daşımalıdır.

ATƏT-in Minsk qrupunun həmsədrlərinin aşkar uğursuzluğunun səbəblərinə gəldikdə isə, həmsədr ölkələr - ABŞ, Fransa və Rusiya Minsk qrupunun həmsədrləri və BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olaraq qətnamələrin icrasını təmin etməyiblər. Təhlükəsizlik Şurasının 5 daimi üzvündən 3-ü kimi onlar bu qətnamələrin qəbuluna səs veriblər və ona görə də bu qətnamələrin icrasını təmin etməli idilər. Cəmiyyətimiz hələ də ATƏT-in Minsk qrupunun həmsədrlərindən təcavüzkarla təcavüzə məruz qalan tərəfin ədalətli şəkildə fərqləndirəcəklərini gözləyir. Təəssüf ki, biz bunu görmürük. Ermənistanın təcavüzkarlıq və işğalçılıq siyasəti ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən birmənalı şəkildə və qətiyyətlə pislənməlidir ki, işğalçı ölkəyə dəqiq mesaj verilmiş olsun. Bunu etməklə Minsk qrupu Ermənistana açıq mesaj göndərər ki, beynəlxalq ictimaiyyət bu ölkənin işğalçılıq və təcavüzkar siyasəti ilə barışmaq fikri yoxdur. Azərbaycan cəmiyyətinə ATƏT-in Minsk qrupuna qarşı bir qəzəb və məyusluq hissi var. Son eskalasiya beynəlxalq vasitəçilərə status-kvonun saxlanmasının nəinki yolverilməz, həm də çox təhlükəli olduğunu xatırlatmalıdır. Vasitəçilər münaqişənin beynəlxalq hüququn prinsip və normaları əsasında tezliklə həllinə nail olmalıdır. Hamı bilməlidir ki, Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığına alternativ yoxdur. Bu məsələ müzakirə oluna bilməz. İşğal olunmuş Dağlıq Qarabağ bölgəsini və 7 ətraf rayonu zorla tərk etməli olmuş bir milyondan çox məcburi köçkün ləyaqətli şəkildə öz doğma yerlərinə qayıtmalıdır.

# "Prezidentin şəxsi nüfuzu Azərbaycan həqiqətlərini beynəlxalq arenaya çatdırmağa imkan verir"

Ermənistan bir tərəfdən beynəlxalq prinsipləri pozur, digər tərəfdən isə Paşinyan hakimiyyəti ölkə daxilindəki gərginliyi azaltmaq üçün məhz belə təxribatlara əl atır. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin deputatı, iqtisadçı ekspert Vüqar Bayramov deyib. Millət Vəkilinin sözlərinə görə, nəzərə almaq lazımdır ki, bu gün Ermənistanın özünün rəsmi statistikasına əsasən, Ermənistanda hər dörd nəfərdən biri yoxsulluq həddində yaşayır, beynəlxalq hesabatlarda bu rəqəm hər üç nəfərdən birdir, eyni zamanda Ermənistanın statistikasına görə, hər beş nəfərdən biri işsizdir, beynəlxalq hesabatlar statistikasında bu rəqəm hər dörd nəfərdən birdir.



"Faktiki olaraq həm Ermənistanın öz rəsmi statistikasından, həm də beynəlxalq hesabatlardan da görünür ki, Ermənistanda iqtisadi-sosial vəziyyət acınacaqlıdır və Paşinyan hökuməti praktiki olaraq, həm də Tovuz istiqamətində təxribat etməklə ölkə daxilində insanların fikrini məhz sosial-iqtisadi problemlərdən yayındırmağa çalışır. Təbii ki, Ermənistan hökumətinin son bəyanatları göstərir ki, bu bəyanatlar nə beynəlxalq prinsplərə əsaslanıb, nə bütövlükdə mövcud qlobal qaydalara söykənir. Ermənistan təcavüzünü davam etdirir və çox təəssüf ki, təcavüzkar olmasına baxmayaraq, qarşı tərəfi ittiham etməkdən belə çəkinmir. Odur ki, Azərbaycan Ordusunun layiqli cavabı, bütövlükdə bizim ordumuzun son illər xüsusən də həm maddi-texniki bazasının gücləndirilməsi, həm intizamın və eləcə də vətənpərvərliyin yüksəlməsi nəticə etibarı ilə Azərbaycan Ordusunun Ermənistanın istənilən təxribatına cavab vermək imkanına qadir olduğunu bir daha nümayiş etdirir. Baxmayaraq ki, bəzi beynəlxalq təşkilatlarda ikili standartlar yenə də hökm sürür, amma təbii ki, Azərbaycan öz haqlı mövqeyini indi daha yüksək səviyyədə beynəlxalq arenada təqdim etmək imkanlarına malikdir. Azərbaycan Prezidentinin şəxsi nüfuzu bu təqdimatı və Azərbaycan həqiqətlərini beynəlxalq arenaya çatdırmağa da imkan verir. O baxımdan düşünürəm ki, Azərbaycan bu tip təxribatlara cavab vermək imkanına və eləcə də gücünə qadirdir və son hadisələr də bunu bir daha təsdiq etdi", deyə Vüqar Bayramov bildirib.

# Sədaqət Vəliyeva: "Şəhid ailələrinin və müharibə əlillərinin problemləri daim diqqət mərkəzindədir"

***"Şəhid ailələrinin və müharibə əlillərinin problemləri daim diqqət mərkəzindədir. Onların mənzil-məişət və iş problemlərinin həlli, avtomobillərlə təminatı, aylıq təqaüdün və birdəfəlik ödəmələrin vaxtlı-vaxtında verilməsi göstərilən qayğının əyani təzahürləridir". Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.***



Sədaqət Vəliyeva bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin ardıcıllığının nəticəsində şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin, veteranların problemləri kompleks şəkildə həllini tapır: "Bu günədək şəhid ailələrinə və müharibə əlillərinə 8018 mənzil və fərdi ev təqdim olunub. Bu qəbildən olan vətəndaşlarımız təkcə 2019-cu ildə 634 mənzil, 300 fərdi evlə təmin ediliblər. 2020-ci ildə isə 700 mənzil və 800 fərdi evin verilməsi nəzərdə tutulub. İlin əvvəlindən indiyədək 430 mənzil artıq təqdim olunub. Xatırladım ki, 2018-ci ildə 265, 2019-cu ildə 600 müharibə əlili avtomobillə təmin olunmuşdu. 2020-ci ildə isə bu qəbildən olan insanlara, ümumilikdə 150 avtomobil verilib. İlin sonunadək isə 400 müharibə əlilinin avtomobillə təmin olunması planlaşdırılır. Ümumilikdə isə müharibə əlillərinə 6900 avtomobil təqdim olunub. Eyni zamanda, şəhid ailələrinə və müharibə əlillərinə müavinət və təqaüdlər 2019-cu ilin aprelində təxminən 100 faiz artıb. Bütün bunlar bir daha onu göstərir ki, ölkəmizdə sosial siyasət ardıcıl, düşünülmüş şəkildə həyata keçirilir".

"İyul ayının 12-dən başlayaraq Tovuz rayonu istiqamətində xaincəsinə təxribat həyata keçirən Ermənistanın artilleriya hücumu nəticəsində şəhid olan hərbçilərimizin də ailələri bu gün dövlətin diqqətindədir" - deyən Sədaqət Vəliyeva əlavə edib ki, Tovuz təxribatının qarşısının alınması zamanı şəhid olmuş zabitlərin ailələrinə mənzillərin verilməsi də diqqət və qayğının daha bir nümunə idi: "Bununla yanaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən fondun nümayəndələrinin Tovuz istiqamətində döyüşlərdə şəhid olan hərbçilərin ailələri ilə görüşlər keçirməsi diqqət və qayğının ardıcıllığının göstəricisidir. Biz sözlə, bu qəbildən olan ailələr, insanlar daim dövlətin və cəmiyyətin diqqəti mərkəzində olub, bundan sonra da belə olacaq".

# Rayonlara yollar nə vaxt açılacaq?

Rayonlara yolların açılması koronavirusun geniş yayılmasına səbəb ola bilər. SİA-nın məlumatına görə, bunu Azərbaycan Prezidentinin İqtisadi məsələlər üzrə köməkçisi Şahmar Mövsümov bu gün Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində deyib. Ş.Mövsümov bildirib ki, rayona yollar açılan kimi yoluxmaların sayı artır: "Biz indiki mərhələdə rayonlara yolları açmaqla əldə etdiyimiz nailiyyəti itirə bilərik. Biz yoluxmaların tam idarəsinə nail olmağa çalışırıq. Buna nail olduqdan sonra rayonlara da yollar açılacaq. Mənim ailəm də deyir ki, gedək İsmayıllıya, Şamaxıya, Qəbələyə, ancaq bu gün bunu edə bilmirik".



# "Vətəndaşının maraqlarını hər şeydən üstün tutan LİDER"

***Bu bir həqiqətdir ki, hər bir dövlətin əsas məqsədlərindən biri əhalinin sosial müdafiəsini təşkil etmək, sosial rifah halını yaxşılaşdırmaqdır. Bu gün real faktordur ki, Azərbaycan dövləti daima öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. Dövlət başçımız İlham Əliyev cənablarının son 17 il prezidentlik fəaliyyəti dövründə xalqımız bunun şahididi. Xüsusi ilə də, şəhid ailələri və Qarabağ müharibəsi əlilləri, onların ailə üzvləri daim dövlətin diqqət və qayğısı altındadır. Bu günlərdə bu kateqoriyaya aid olan insanlara mənzil və avtomobillər verilir, güzəşt və müxtəlif kompensasiyalarla təmin edilirlər.***



İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təqdimat mərasimində iştirak etdiyi tədbirdə dövlət başçımız bildirib ki, Bu, dövlətin sizə növbəti diqqətinin təzahürüdür. Dövlət başçımız onu da bildirib ki, şəhid ailələrinin, müharibə əlillərinin problemləri daim diqqət mərkəzindədir və son illər ərzində bu istiqamətdə çox böyük işlər görülüb. "Təkcə onu demək kifayətdir ki, 8 mindən çox şəhid ailəsi, müharibə əlili mənzillərlə təmin edilib və 7 minə yaxın avtomobil verilibdir. Hesab edirəm ki, biz bu il də bu sahədə rekord göstəriciyə nail olacağıq, buna şübhə yoxdur. Bu il 1500 şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilir və ediləcəkdir. Bütün mənzillər ən yüksək keyfiyyətlə tikilən yeni evlərdədir. Eyni zamanda, sizin üçün 400 avtomobil də nəzərdə tutulur və beləliklə, biz bu il bu sahədə ən böyük göstəriciyə nail ola bilmişik"- deyən dövlət başçımız sosial layihələrin bundan sonra da həyata keçiriləcəyini deyib.

### Xalqın sosial rifahı Prezidentin prioritet siyasətidir

Məlum olduğu kimi, dünyanı ağuşuna alan koronavirus epidemiyasına qarşı mübarizə apardığı, qlobal təhlükə ilə mübarizədə ön sırada durması, dövlət başçımızın təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsini 130-dan çox ölkənin dəstəkləməsi, Ermənistan bu təşəbbüsün əleyhinə çıxmaqla bir daha özünü rüsvay edərək, bir daha özünü dünyadan təcrid etməsi, işğalçı ölkədə erməni xalqını Paşinyanın iki il ərzində uçuruma yuvarlanan ölkəni məhvə doğru apardığını örtbasdır etmək üçün quduzlaşmış erməni quduzları növbəti dəfə iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutdular. Həmişə olduğu kimi, bu dəfə də erməni tərəfinin bugünkü təxribatı və məğlubiyyəti bir daha Azərbaycan Ordusunun gücünü, Azərbaycan əsgərinin əzm və rəşadətini nümayiş etdirdi. Bu həmişə belə olub, bundan sonra da erməni quduzlarının burnunu əzməklə onlara yerini göstərdi.

### Bu gün hər bir vətəndaş hiss edir ki, dövlət onun arxasındadır

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının Tovuz rayonunu Ermənistan Respublikası Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində həmin kəndlərdə yaşayan mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" Sərəncam Tovuz sakinlərini bir daha əmin etdi ki, dövlət istənilən vaxt öz vətəndaşının yanındadır. ondan ibarətdir ki, bu gün hər bir vətəndaş hiss edir ki, dövlət onun arxasındadır. Məlum məsələdir ki, ermənilərin təxribatı nəticəsində Tovuzun 6 kəndində təxminən 35 evə və digər infrastruktura ciddi ziyan dəyib. Cənab Prezident Sərəncamında bütün bunların araşdırılması, eyni zamanda Fövqəladə Hallar Nazirliyi və İqtisadiyyat Nazirliyi ilə birlikdə bu məlumatların təhlil edilməsi və məlumatın Nazirlər Kabinetinə təqdim edilməsini tapşırıb. Düşünürəm ki, dəymiş zərərin aradan qaldırılması üçün bu sənəd çox vacibdir. Bunun əsas məramı dövlətin hər bir vətəndaşının yanında olmasıdır. Bunu da hər bir sakin anlayır. Bir məqamı da xüsusi vurğulayım ki, Birinci vitse-prezident Mehriban Əliyeva Tovuz istiqamətində şəhid olan 12 hərbçi ilə bağlı Heydər Əliyev Fonduna tapşırıq verib. Şəhid olan hərbçilərin ailə üzvlərinin bütün qayğıları daim Fondun nəzarətində olacaq.

Həmçinin, keçirilən görüşdə dövlət başçımız pandemiyadan əziyyət çəkən insanlara dövlət tərəfindən çox böyük dəstək göstərildiyini, yeni xəstəxanalar, modul tipli xəstəxanalar tikildiyini, xəstələrin dərmanlarla təchiz edildiyini də bildird: "Biz bunu edirik, çünki bu, bizim borcumuzdur. Ona görə edə bilirik ki, bizim imkanımız var. İmkanı da biz öz işimizlə, məqsədyönlü fəaliyyətimizlə yaradırıq. Həm xarici siyasətimiz, həm daxili siyasətimiz bir məqsədi güdməlidir ki, ölkə daha da qüdrətli olsun, insanlar daha da yaxşı yaşasınlar. Pensiyaların artırılması - bu il pensiyalar orta hesabla 27 faiz, orta əməkhaqqı 25 faiz artıb. Bütün bunlar bizim siyasətimizi göstərir".

### "Mən deyəndə ki, bu, düşmənçilikdir, bu, müxalifətçilik deyil, - müxalifətçilik dövlətə qarşı ola bilməz, - mən tam haqlıyam"

Yenə də "sapı özümüzdən olan baltalar", həmişə olduğu kimi, bu çətin pandemiya dövründə də insanlara qayğı göstərilməsinə kölgə salmağa çalışdıqlarını və neftin aşağı düşməsinə sevindiklərinə də toxunaraq bildirdi ki, buna sevinən bir Ermənistan, bir də bu torpaqlarımızı satan AXCP-nin tör-töküntülər: "Amma əfsuslar olsun, ölkə daxilində elələri tapılır ki, neftin qiymətinin düşməsinə sevinirlər. Buna kim sevinir? Mən demişəm, bir daha demək istəyirəm ki, qoy, Azərbaycan xalqı bunu bilsin və unutmasın. Birincisi, Ermənistan sevinir, çünki başa düşürlər ki, əgər bu tənəzzül davamlı olarsa, Azərbaycanın gəlirləri azalacaq, ona görə öz xərclərini azaldacaq, lazımi həcmdə silah-sursat ala bilməyəcək və beləliklə, zəifləyəcək və Ermənistan da bundan faydalanacaq. Buna Ermənistan sevinir, bu, təbiidir. Amma başadüşülən deyil ki, buna Azərbaycanın bəzi vətəndaşları, yaxud da ki, özlərini Azərbaycan vətəndaşı sayanlar sevinir. Bu məlumat artıq ictimailəşib".

Bu satqınların ermənilərdən də pis olduğunu deyən dövlət başçımız bildirdi ki, Azərbaycan Xalq Cəbhəsinin gözündə qalan arzusuna çatmasına imkan verilməyəcək: "Görün, bu adamlar hansı miskin və aciz gündədirlər. Hanı bunların "hünəri", hanı bunların "qəhrəmanlığı"? İndi qanun qarşısında cavab verəcəklər. Mən demişəm, bir daha da demək istəyirəm, bu cinayətləri, bu əməlləri törədən heç bir adam məsuliyyətdən qaça bilməyəcək. Bir-bir hamısını tapacağıq və bir-bir tapırıq. Son nəfərinə qədər tapıb məsuliyyətə cəlb edəcəyik. Qoy, xalq onları tanısın. Qoy, onların valideynləri utansınlar - onlar kimi böyüdüblər?".

Beləliklə, bütün bunlar bir daha onu göstərir ki, Azərbaycan Prezidentinin fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulmuşdur. Əminliklə demək olar ki, Azərbaycan xalqını uğurlu gələcəyə aparan bu siyasət növbəti illərdə də davam etdiriləcək, respublikamız Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayacaq və dövlət başçımızın dediyi kimi - "Əminəm ki, dövlətimiz və xalqımız bu sınaqdan da üzüağ çıxacaq".

**_SEYFƏDDİN ƏLİYEV,_**
**_YAP Masallı rayon təşkilatının sədri_**

## Məşhur Məmmədov: "Prezident İlham Əliyevin gördüyü işlər bütün dünya üçün nümunədir"



"İyulun 21-də Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşündə çıxış edən dövlət başçısı bildirib ki, bizim böyük iqtisadi potensialımız, buna paralel olaraq, güclü sosial siyasətimiz var". Bu fikirləri SİA açıqlamasında Milli Məclisin deputatı Məşhur Məmmədov deyib. Millət vəkili bildirib ki, Prezident İlham Əliyev tərəfindən təsdiq olunan növbəti sosial paket onu göstərir ki, dövlət başçısı daim Azərbaycan vətəndaşlarının qayğısına diqqət və qayğı göstərir, onların sosial rifah halının durmadan yaxşılaşmasına çalışır.

M.Məmmədov, xüsusilə şəhid ailələrinə və ərazi bütövlüyümüzün təmin olunması uğrunda sağlamlıqlarını itirənlərə, həmçinin aztəminatlı ailələrin problemlərinin daim diqqət mərkəzində olduğunu deyən dövlət başçımız son illər ərzində bu sahədə çox böyük işlər görüldüyünü vurğulayıb. "Təkcə onu demək kifayətdir ki, 8 mindən çox şəhid ailəsi, müharibə əlili mənzillərlə təmin edilib və 7 minə yaxın avtomobil verilibdir. Hesab edirəm ki, biz bu il də bu sahədə rekord göstəriciyə nail olacağıq, buna şübhə yoxdur. Bu il 1500 şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilir və ediləcəkdir. Bütün mənzillər ən yüksək keyfiyyətlə tikilən yeni evlərdədir. Eyni zamanda, sizin üçün 400 avtomobil də nəzərdə tutulur və beləliklə, biz bu il bu sahədə ən böyük göstəriciyə nail ola bilmişik" - deyən ölkə Pezidenti görülən işlərin müqayisəsini də açıqlayıb: "Müqayisə üçün deyə bilərəm ki, keçən il 934 mənzil verilmişdir, bu il isə 1500, ondan əvvəlki illərdə təqribən ildə 500-600-700. Yəni, bu, onu göstərir ki, bu problemi həll etmək və şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən nəzərdə tutulmuş evlərin təqdim edilməsi üçün çox fəal iş aparılır".

Millət vəkili bir daha qeyd edib ki, dövlətin apardığı işlərdə dövlət büdcəsinin böyük hissəsi sosial məsələlərin həllinə xərclənir, xüsusilə də sosial xərclərin içində şəhid ailələrini, müharibə əlillərini, müharibə veteranlarını, məcburi köçkünləri əhatə edən çox böyük proqramların icra olunduğunu təsdiqləyir: "Bu istiqamətdə icra olunan layihələr nəticəsində həmin kateqoriyadan olan minlərlə insanın sosial vəziyyəti daha da yaxşılaşır. Dövlətin bu sahədə gördüyü işlərə qayğı Heydər Əliyev Fondunun, şəxsən fondun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ən çox diqqət yetirdiyi sahələrdəndir. Xatırlayırsınızsa, 2017-ci il martın 9-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuş müşavirə keçirilmişdi. Mehriban xanım həmin müşavirədə demişdi ki, qaçqınlara və məcburi köçkünlərə qayğı Azərbaycan dövlətinin fəaliyyətinin ən prioritet istiqamətlərindən biridir. Müstəqilliyimiz bərpa olunandan sonra ən ağır dövrlərdə, ölkəmizin inkişafının bütün mərhələlərində bu sahəyə dövlət tərəfindən böyük qayğı göstərilib. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Sosial cəhətdən qayğıya ehtiyacı olan insanların problemlərinin həlli istiqamətində Fondun təşəbbüsü və dəstəyi ilə çox mühüm layihələr icra olunur. Bütün bunlar göstərir ki, Azərbaycan dövləti qayğıya ehtiyacı olan insanların, xüsusilə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş insanların ailələrinin, əlillərin sosial məsələlərinin həllini xüsusi diqqət mərkəzində saxlayır".

M.Məmmədov bu çətin pandemiya dövründə dünyada böhran davam etdiyi bir zamanda dünyanın 150 ölkəsi kredit üçün beynəlxalq maliyyə qurumlarına müraciət etdiyi halda Azərbaycanın bu siyahıda adını olmadığını deyib: "Çünki Azərbaycan dövlət başçımızın uğurlu və düşünülmüş siyasəti nəticəsində öz hesabımına yaşayır. Görüşdə də dövlət başçımız bu məsələyə toxunaraq bildirmişdi ki, neftin qiyməti kəskin aşağı düşməsinə baxmayaraq, bu işlər görülür: "Budur siyasət. Bu, bizim şəhid ailələrinə, şəhidlərin ruhuna olan hörmətimizdir"- demişdir".

Millət vəkili, həmçinin bildirib ki, həmişə olduğu kimi, bu gün də aramızda olan mənfur "müxalifətçiyəm" deyənlərin xalqımıza, dövlətimizə qarşı satqınçılıq, düşmənçilik niyyətlərinin şahidi oluruq: "Görüşdə də dövlət başçımız bu məsələyə toxunaraq deyib ki, neftin qiymətinin aşağı düşməsinə ancaq Ermənistan və AXCP törtöküntüləri sevinə bilər: "Mən demişəm, bir daha demək istəyirəm ki, qoy, Azərbaycan xalqı bunu bilsin və unutmasın. Birincisi, Ermənistan sevinir, çünki başa düşürlər ki, əgər bu tənəzzül davamlı olarsa, Azərbaycanın gəlirləri azalacaq, ona görə öz xərclərini azaldacaq, lazımi həcmdə silah-sursat ala bilməyəcək və beləliklə, zəifləyəcək və Ermənistan da bundan faydalanacaq. Buna Ermənistan sevinir, bu, təbiidir. Amma başa düşülən deyil ki, buna Azərbaycanın bəzi vətəndaşları, yaxud da ki, özlərini Azərbaycan vətəndaşı sayanlar sevinir. Bu məlumat artıq ictimailəşib".

M.Məmmədova bildirib ki, verilən vədlər əməli işlərdə özünü doğruldu və bu gün də həmin xeyirxah missiya uğurla davam etdirilir: "Bir sözlə, bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur. Azərbaycan hakimiyyətinin yürütdüyü sosial siyasət öz növbəsində inqilabi xarakter daşıyır. Bu, ilk növbədə, cənab Prezidentin, Azərbaycan dövlətinin öz vətəndaşına olan diqqət və qayğısının təzahürüdür. Ölkəmizdə insan amili, onun rifahı, məşğulluğun təmin olunması, yoxsulluğun və işsizliyin aradan qaldırılması, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin prioritetlərindən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşının rifahı dayanır. Məhz bu kontekstdə Prezident İlham Əliyevin verdiyi qərarlar və görülən işlər bütün dünya üçün nümunədir. Bütün bunlar deməyə əsas verir ki, sosialyönümlü layihələrin icrası bundan sonra da uğurla davam etdiriləcək".

**_R.HÜSEYNOVA_**

## “Qorxaq, aciz, yardım dilənən Ermənistan və onun rəhbərliyi nəticə çıxarsın”



“Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Qarabağ, torpaq məsələsində bir daha Azərbaycan mövqeyini qəti və birmənalı şəkildə ifadə etdi. Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bir daha işğalçı, təcavüzkar, təxribatçı və fitnəkar Ermənistanı kəskin şəkildə ittiham və ifşa etdi, onun bütün cinayətkar addımlarının, təxribatlarının qarşısının alındığını və bundan sonra da qətiyyətlə, alınacağını bəyan etdi. Xüsusilə, son günlər Azərbaycan-Ermənistan sərhəddinin Tovuz istiqamətində baş verənlərə, Ermənistanın növbəti təxribatına sərt və birmənalı mövqeyini ortaya qoyaraq, onlara layiq cavab verildiyini və hər zaman da veriləcəyini açıq şəkildə vurğuladı”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Elm və təhsil komitəsinin üzvü olan deputatı Kamilə Əliyeva deyib.

Onun sözlərinə görə, bir daha Ali Baş Komandan qətiyyətini, cəsarətini, iradəsini, Azərbaycanın gücünü və qüdrətini ortaya qoydu, nümayiş etdirdi: “Çıxışı zamanı dövlət başçısı “Bir daha demək istəyirəm ki, görülmüş operativ tədbirlər nəticəsində Ermənistan ordusu layiqli cavabını aldı. Mən Təhlükəsizlik Şurasının toplantısında artıq demişdim ki, Azərbaycan əsgər və zabitlərinin qanı yerdə qalmamalıdır. Onlara sarsıdıcı zərbələr endirildi və bu zərbələr əminəm ki, onlara yaxşı dərs oldu”-deyərək, bildirdi ki, son günlər ərzində Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. Dövlət başçısının qeyd etdiyi kimi, həqiqətən də, bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. Sonra “Necə ki, 2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik. İki il bundan əvvəl, 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsi Azərbaycan Ordusu tərəfindən götürüldü və işğalçılar o bölgələrdən qovuldu. Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət edək”-deyən dövlət başçımız onu da bildirdi ki, son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi ki, xalq-dövlət, xalq-iqtidar birliyini hər an, hər gün görmək mümkündür və bu birlik, bu vəhdətlik, bu həmrəylik bundan sonra da davam edəcək, heç kim, nə daxildəki, nə də onların xaricdəki havadarları, anti-Azərbaycan qüvvələr bunu sarsıda, laxlada biləcək.

Bütün təxribatçıların, bütün fitnəkarların oyunları öz başlarında çatlayacaq, çatladılacaq. Onların heç bir arzusu gerçək olmayacaq, məkrli planları, ssenariləri baş tutmayacaq. Necə ki, bu günə kimi baş tutmayıb, bundan sonra da alınmayacaq. Təxribatçılar, fitnəkarlar hamısı qanun, Azərbaycan dpvləti qarşısına cavab verməli olacaq. Xalq-dövlət-iqtidar həmrəyliyi, Azərbaycan dövlətinin gücü, Ali Baş Komandanın iradəsi imkan verməyəcək ki, kimlərsə özünü qanunlardan yuxarıda apararsın, etdikləri əməllərin cəzasından yayınsın. Bu, qəti şəkildə mümkün olmayacaq. Cənab Prezidentin də qeyd etdiyi kimi, onların hamısı məsuliyyətə cəlb ediləcək, məsuliyyətdən boyun qaçıra bilməyəcək”.

Millət vəkili əlavə edib ki, qazanan yenə bizlər, Azərbaycan xalqı, Azərbaycan dövləti olacaq və birlikdə bütün problemlərimizin, o cümlədən, bir saylı problemimiz, ümummilli dərdimiz olan Qarabağ münaqişəsinin müsbət və ədalətli həllinə nail olacağıq: “Buna nə işğalçı və təcavüzkar Emənistan, nə illərdir ona açıq-gizli havadarlıq edənlər, nə söz oyunundan, ikili standarlar tətbiq etməkdən başqa əlindən bir iş gəlməyən ATƏT, nə Minsk qrupu, nə də digər anti-Azərbaycan qüvvələr mane ola biləcək. Biz bir xalq və dövlət olaraq, bu günə kimi, çox çətinliklərin öhdəsindən gəlmişik, çox imtahanlardan, sınaqlardan üzüağ çıxmışıq, bundan sonra da belə olacaq, qarşımızdakı bütün maneələri bir-bir aşacağıq, birdəfəlik dəf edəcəyik. Ali Baş Komandanımızın rəhbərliyi, Ordumuzun gücü, qüdrəti, rəşadəti ilə işğal faktına son qoyacağıq, bütün ərazilərimizdə, Qarabağımızda üçrəngli bayramığızı ucalardan-ucalarda dalğalandıracağıq. Çünki biz Haqq mübarizəsi aparırıq, çünki biz Haqq savaşındayıq. Bu Haqq savaşında bizim yanımızda olanlarla, bizə dəstək verənlərlə birgə bu savaşı, bu mübarizəni biirlikdə qələbə ilə sonuclandıracağıq, başa çatdıracağıq.

Yaxşı olar ki, bunu qorxaq, aciz, ona-buna yalvaran, imdad, yardım diləyən, dilənən Ermənistan və onun başabəla rəhbərliyi də, işğalçı dövlətə himayədarlıq edən, Azərbaycanla bağlı məkrli niyyətləri, planları olan güclər, mərkəzlər də yaxşı anlasın, dərs, nəticə çıxarsın. Bilsinlər ki, işğalla barışmadıq, barışmayacağıq, torpaq məsələsində güzəştə getmədik, getməyəcəyik, Şəhidlərimizin qanını yerdə qoymadıq və qoymayacağıq. Ali Baş Komandanın rəhbərliyi ilə qələbə və zəfər bizimlə olacaq”.

*Nigar Məmmədova*

## “Rəsmi Moskva Cənubi Qafqazda uzunmüddətli sülhün tərəfdarıdır”

“Rəsmi Moskva Cənubi Qafqazda uzunmüddətli sülhün tərəfdarıdır”. SİA-nın məlumatına görə, bunu Ermənistanın Rusiyadakı səfiri Vardan Toqanyan “Sputnik Ermənistan”a açıqlamasında Azərbaycan və Ermənistan səfirlərinin Rusiya xarici işlər naziri ilə son görüşünü şərh edərkən deyib. O bildirib ki, Rusiya Xarici İşlər Nazirliyi Azərbaycan-Ermənistan sərhədindəki vəziyyəti yaxşı bilir: “Rusiyanın Xarici İşlər naziri Ermənistan və Azərbaycan səfirlərini işgüzar səhər yeməyinə dəvət etdi. Biz bölgədəki, Ermənistan-Azərbaycan sərhədindəki vəziyyət haqqında nazirə məlumat verdik. O, fikirlərini, Cənubi Qafqazda uzunmüddətli, dinc, sabit vəziyyətə gəlmək arzusunu bildirdi”.

Toqanyan əlavə edib ki, Rusiya sərhəddə atışmalara son qoymağın və tezliklə birlikdə dinc həyata keçməyin tərəfdarıdır.

Qeyd edək ki, ötən gün Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov Azərbaycan və Ermənistanın bu ölkədəki səfirləri - Polad Bülbüloğlu və Vardan Toqanyan ilə görüşüb, ATƏT-in Minsk Qrupunun himayəsi altında Qarabağ nizamlanması üçün səylərin intensivləşdirilməsini müzakirə edib. Xatırladaq ki, iyulun 12-də Ermənistan silahlı qüvvələri sərhədin Tovuz istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və mülki yaşayış obyektlərini atəşə tutmuşdu. Ordumuz düşmənin təxribatına layiqli cavab verərək artilleriya atışları ilə onları geri oturtmuşdu. İnsident fasilələrlə iyulun 16-na qədər davam etdi.

*Aysel Məmmədova*

## Ermənistanın hərbi iflasa uğradığı Tovuz döyüşlərində ortaya çıxdı



“İlk dəfədir ki, xaricdə yaşayan azərbaycanlılar həddən artıq fəallıq göstərirlər. Əslində ilk dəfə deyil. Məsələ burasındadır ki, bu günə qədər xaricə olan soydaşlarımızın sayı az idi və lobbiçilik fəaliyyəti ilə məşğul ola bilmirdilər. Həm maliyyə imkanları az idi, həm oradakı səfirliklərlə olan əlaqələri lazımı səviyyədə deyildi. Bizim Xarici İşlər Nazirliyi onlarla heç bir iş görmürdü. Diaspora komitəsinin də fəaliyyəti demək olar ki, görünmür. Onlar xaricdə yaşasalar da Azərbaycana bağlıdırlar və ürəkləri vətənlə birgə döyünür. Onlar üçün hansısa bir dövlət qurumunun onlarla işləyib-işləməməsinin heç bir əhəmiyyəti yoxdur. Onlar içlərindən gələn vətən sevgisi ilə bu aksiyaları həyata keçirdilər”. BunuSİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.

Onun sözlərinə görə, Ermənistanda baş verən hadisələr artıq Ermənistanın dövlət kimi iflasa aparıb: “Onlar yenə gözlərini şimaldan gələcək köməyə dikirlər və hətta onların bir hissəsi günəşin şimaldan doğacağına əmindir, digər hissəsi isə günəşin qərbdən doğacağını düşünürlər. Amma gördüyünü kimi günəş nə şimaldan, nə də qərbdən doğur. Ona görə Ermənistan siyasi iflas ərəfəsindədir. Ermənistan iqtisadi və ideoloji iflasa artıq çatıb. Bir siyasi iflas qalıb. Hərbi iflasa isə uğradığı da Tovuz döyüşlərində ortaya çıxdı. Bütün bunların fonunda xaricdə baş verən azərbaycanlıların fəaliyyəti çox qürurvericidir. Yəni bir millət kimi biz artıq özümüzə qayıtmışıq, özümüzü dərk eləmişik, özümüzü sevmişik. Mən bir Azərbaycan vətəndaşı olaraq xaricdə bu işləri həyata keçirən bütün soydaşlarımıza minnətdarlığımı bildirirəm, çünki onlar bizim həqiqətləri dünyaya yenidən açdılar. İki şəkildə-dövlət və millət səviyyəsində bu baş verir. Soydaşlarımız millət şəklində bu həqiqətləri dünyaya çatdırır”.

Poltoloq bildirib ki, Ermənistanın bütün səylərinə baxmayaraq ABŞ parlamentində yeni düzəlişlər oldu: “Bu hər iki düzəliş bilavasitə ABŞ-ın Azərbaycana yeni münasibətini ortaya qoyub. Çünki bu günə qədər ABŞ məsələyə ikili standartlarda yanaşırdı, amma burada Azərbaycanla bərabər Gürcüstan, Ukrayna və Moldovanın gündəmə gətirilməsi və eyni zamanda bu ərazilərin işğalı nəticəsində yaşadığı yerləri tərk etmiş insanların sayı ilə bağlı hesabatın istənilməsi, mülki və digər məsələlərin gündəmə gələcəyi faktları fonunda artıq Ermənistan pis vəziyyətə düşəcəyi məlumdur. Çünki Rusiyanın başı dərddədir. Rusiya özü Ukraynada, Moldovada və Gürcüstan ərazisində də separatçılıqla məşğul olub. Rusiya böyük bir siyasi səhvə yol verərək Abxaziya, Cənubi Asetiyanın vətəndaşlarına Rusiya pasportları paylayıb. İmkanları olsaydı, onlar Dağlıq Qarabağ üçün də bunu edərdilər. Lakin buna bilavasitə Azərbaycan Prezidentinin mövqeyi imkan vermədi”.

C.Nuriyev vurğulayıb ki, Tovuz hadisələri göstərdi ki, biz nə şimal, nə cənub qonşularımızdan hər hansı bir yenilik gözləməməliyik: “Ən xoşagələn odur ki, Azərbaycan dövləti tək olmadığını ortaya qoydu. Türkiyə yüksək səviyyədə nəyinki Azərbaycanı dəstəklədi, həm Prezidenti, həm Parlamenti, həm XİN naziri, həm də ordusu səviyyəsində Azərbaycanın yanında olduqlarını sübut etdilər. Bu da Türkiyə üçün gələcəkdə müəyyən problemlər yarada bilər, amma Türkiyə böyük dövlətdir, NATO-nun üzvüdür və hesab edirəm ki, Türkiyə ilə birgə Pakistanın da Azərbaycanı bu günə qədər dəstəkləməsi çox qürurvericidir. Cənubi Azərbaycanda da Azərbaycana dəstək aksiyaları baş alıb gedir, lakin aksiya iştirakçılarından həbs edilənlər də var. Farsla rus xalauşağıdır, erməni də onların dayısı uşağıdır. Bu üçlüyün əsas məqsədi Azərbaycan adlı bir dövlətin ortadan qaldırılmasına xidmət etməkdir. Təəssüf ki, Azərbaycan daxilində də hayqanuşun uşaqları var və eyni zamanda nəfsi özündən çox qabaqda gedən nazirlərimiz, icra başçılarımız var. Hansı ki, onların nəfsi Həzrəti Əlinin qılıncından kəskindir. Bu adamlar üçün millət, dövlət sevgisi yoxdur. Belələri imkan vermir ki, millətini, dövlətini sevən insanlar dövlətinin, Prezidentinin yanında olsun. Bunun cəzası çox ağır olacaq. Xarici İşlər Nazirliyinin fəaliyyəti göstərdi ki, Azərbaycan bu məsələlərdə hələ də yaxşı vəziyyətdə deyil. Bütün bunlara baxmayaraq biz bir millət kimi özümüzə gəlirik. Əminəm ki, bu şəkildə davam etsək, tezliklə Azərbaycan bu problemləri həll edərək çox güclənəcək”.

## “Cocuq Mərcanlıdakı şərait Ermənistanın paytaxtındakından qat-qat üstündür”



“Tovuz istiqamətində gedən döyüşlər zamanı mülkü əhaliyə və o cümlədən dövlət əmlakına Ermənistan separatçı rejimi tərəfindən ciddi ziyan vurulub. İlkin hesablamalara görə, Tovuzun 6 kəndində 35 fərdi evə təxribat zamanı ziyan dəyib və eyni zamanda qaz boruları, elektrik və rabitə xəttlərinə və.s sosial obyektlərə ziyan dəyib”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü Cavid Osmanov deyib.

Onun sözlərinə görə, Cənab Prezidentimiz də hər zaman olduğu kimi bir daha Azərbaycan dövləti və vətəndaşının yanında olduğunu bir daha nümayiş etdirib: “Belə ki, dəymiş ziyanla bağlı ölkə Prezidenti sərəncam imzaladı və işçi qrupu yaradılıb. Artıq təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinə başlanılıb. Əlbəttə ki, bu bir daha onu sübut edir ki, Azərbaycan çox güclü və qüdrətli dövlətdir. Ölkə Prezidetinin yürütdüyü siyasət hər zaman ölkəmizi uğura aparır. Ölkəmizdə eyni zamanda pandemiyanın iqtisadiyyata vurduğu ziyana baxmayaraq heç bir sosial layihə təxirə salınmayıb. Tovuzda erməni təxribatı davam edərkən cənab Prezidentimizin bu sərəncamı məhz bir daha Azərbaycanın gücünü, eyni zamanda Prezidentimizin hər zaman Azərbaycan vətəndaşının yanında olmasında xəbər verir”.

C.Osmanov vurğulayıb ki, bu addım onu da göstərir ki, məhz Azərbaycan Prezidenti son dərəcə qətiyyətlidir: “Azərbaycan bir qarış belə torpağının itirilməsilə barışmayıb və barışmayacaq. Yadınızdadırsa, 2016-cı ilin Aprel döyüşlərində Cocuqmərcanlı işğaldan azad edildikdən sonra orada tamamilə yeni ifrastruktur yaradıldı. 150 dən çox fərdi evlər, məktəb uşaq baxçası, məscid, istehsal müəssisələri, iş yerlərinin yaradılması, yol-nəqliyyat infrastrukturunun yaradılması məhz Azərbaycanın iqtisadi və siyasi gücünü göstərdi. Cocuqmərcanlıda yaradılan şərait Ermənistanın paytaxtındakı şəraitdən qat-qat üstündür. Bütün bunlar onu göstərdi ki, Azərbaycan dövləti daim vətəndaşlarının yanındadır və olacaq”.

# Hafiz Hacıyev: “Onlar “Milli Şura” deyil, xəyanətkarlar, juliklər şurasıdır”

***“Qeybətxana yuvası olan “Milli Şura”nın “zoom”la keçirilən iclasında işlədilən ifadələri eşitdikdə, əlini göyə qaldırıb belə tərbiyəsiz və əxlaqsız virusların aramızdan yox olmasını arzulayırsan”. Bunu Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev SİA-ya açıqlamasında bildirib.***



Onun sözlərinə görə, “Milli Şura”-nın dirijoru Kərimli Əli, “ağsaqqalı” Cəmil Həsənli ola, hansı milli qeyrətdən danışmaq olar?. Xarici qüvvələrin diktəsi ilə istər Kərimli Əlisi, istər Həsənli Cəmil, istər Hacıbəyli Gültəkin və digər satqı və dələduz viruslar birmənalı olaraq hazırda Azərbaycana qarşı mənfur kampaniyalar aparırlar: “Məqsəd Azərbaycandakı sabitliyi və təhlükəsiz həyat mühitini pozaraq güclü təxribat yaratmaq, ölkədə qarışıqlıq salmaq üçün hər yola əl atılır. İllərdir biz qüvvələri bu iyrənc anti-kampaniyaları davam etdirdiyini görürük. Bu gün qıvrıla-qıvrıla qalan bu dələduzlar yığnağı Azərbaycanda qarışıqlıq yaratmaq üçün tin kornavirusdan faydalanaraq, guya xalqın dərdinə qalmaq məqsədi ilə sosial şəbəkələrdən çağırışlar edir, mitinqlərə çıxmaqla bu problemdən xidas olmaq nail olacaqlarını bildirirlər. Səviyyəsi düşüncə buna deyilir. Erməni əsgərinin çəkməsinə “tryapka” olmağa razı olan Kərimli Əli, Həsənli Cəmillərdir ki, işğalçı və təcavüzkar Ermənistannı müdafiəsinə qalxaraq deyir ki, iqtidar erməni dövlətin ancaq börtanlar ağdırır. Məqsəd nədir? “Milli Şura” dələduzları Azərbaycanda ikinci erməni dövləti qurmaq üçün işğalçı erməni əsgərinin çəkməsinə “tryapka” olmağa belə razıdırlar. Kimsə doğrudan da varlanmaq üçün, xəyanətinə əvəz olaraq pula satılır. Məhz buna görə də xəyanətin qiyməti yüksəkdir. Satqın üçün hər şey - satlıq maldır. Ancaq unutmaq olmaz ki, hər kəs gec-tez etdiyi cinayət əməllərinə görə də cəzasını çəkməlidir. Ancaq bu parazitlər anlamırlar ki, “sirkə nə qədər tünd olsa öz qabını çatladacaq”.

Hafiz Hacıyev “Milli Şura” üzvlərinin neftin qiymətinin düşməsi ilə bağlı səsləndirdiyi ironiya dolu fikirlərə də münasibət bildirib və qeyd edib ki, rəhbərlik etdiyi partiyadan onlar haqqında zaman-zaman verilən bəyanatlar öz yerini tutub: “Hamısı səviyyəsiz insanlardır. Orada kimlər var?! Hazırda “Milli Şura”da rayon partiya komitələrindən, hərbi hissələrdən qovulmuş adamlar, vaxtilə parlamentdə gedib Avropa Şurası Parlament Assambleyasında Azərbaycanı təmsil edən Gültəkin Hacıbəyli kimi əxlaqsız, satqın və mənəviyyatsızlar. Beləlrini dar ağacından asmaq lazımdır”.

H.Hacıyev onu da deyib ki, “Milli Şura” deyilən juliklər şurası çox şişirdilir: “Həmin qurumda 5-10 nəfər julik yığışıb, mənimçün onlar juliklər şurası idi. Mən bu məsələ ilə əlaqədar dəfələrlə öz müsahibələrimdə demişəm. Çünki onlar əqidə cəhətdən kasat, xaricə satılmış və vaxtilə müəyyən hakimiyyətlərin qollarına xidmət etmiş insanlar olub”.

Partiya sədrinin sözlərinə görə, onların da yiyələri artıq bildiyiniz kimi müəyyən yerdə yoxdur: “Ona görə də onların iflası gözlənilən idi. Lakin düşünürəm ki, heç bir işə yaramayan, indiyə kimi heç bir fəaliyyəti olmayan qurumun iflasından danışmağa da dəyməz. “Milli Şura” indiyə kimi dövlət, xalq üçün nə edib ki?”.

H.Hacıyev bildirib ki, dövlətə, müstəqilliyə, Elçibəyə xəyanət edən insanların axırı yaxşı olmayıb, olmayacaq da: “Onların bu cür məhv olması labüddür. “Onlar “Milli Şura” deyil, yenə də deyirəm, xəyanətkarlar şurasıdır. Bu xəyanətkarlar şurasının başçısı Vaşinqtona gedirsə, özünə bığ qoyub həmin bığı rəngləyirsə, bunlardan hansı kişiliyi gözləmək olar?! Onlar həmişə Azərbaycana xəyanət edən insanlar olublar. Bu gün də həmin yolu tutublar. Düşünürəm ki, bu gün onlara inanan yoxdur. Onların gələcəyi də, perspektivi də yox dərəcəsindədir. Xalq onları heç vaxt qəbul etməyib. Onlar xalq qarşısında çıxış edə bilməzlər. Onların videoiclaslarına baxın, biri təpəsi üstə yatır, o biri böyrü üstə durur. Belə dələduzların yeri küçədə zibilxanalardır, ancaq ora da onlar üçün layiq deyil .Çünki o zibil yeşiklərini təmizləyib dezinfeksiya edirlər, bu virusları dezinfeksiya etmək mümkünsüzdür, cəmdəkləri başdan-ayağa qədər virusdur”.

***Rəfiqə HÜSEYNOVA***

# XƏYANƏT..!

***Təəssüf və acı doğuran məqamlardan biri də budur ki, Azərbaycan dövləti nə zaman uğur və qələbə istiqamətində addımlayırsa, onun bu addımlarına qarşı qara yaxmağa çalışan, hətta mövqeyindən sui-istifadə etməklə kirli maraqlarını istifadə etməyə cəhd göstərən ünsürlər də üzə çıxırlar. Bunun isə bir adı var XƏYANƏT..!***

Bu xəyanəti illərdir ki, siyasi müstəvidə, daha dəqiq desək, siyasi müxalifətçilik yönündə törədənlərin başında daha çox AXCP sədri Əli Kərimlinin dayanması kimsəyə sirr deyil.

**Bu adam hətta öz partiyası daxilində liderinə qarşı xəyanət etmiş şəxsdirsə, əslində həmin məsələdən təəccüb etməyə də dəyməz**

Ümumiyyətlə, bu gün Əli Kərimli deyərkən, xəyanət, satnıqçılıq, riyakarlıq və bu xüsusda mövcud olan bütün ifadələri ona aid etmək çətinlik yaratmır. Bu adam hətta öz partiyası daxilində liderinə qarşı xəyanət etmiş şəxsdirsə, əslində həmin məsələdən təəccüb etməyə də dəyməz. Amma bununla yanaşı, Əli Kərimlinin ifşa edilməsi, hansı tipli ünsürə malikliyi barədə tez-tez danışmaq, yazmaq lazımdır ki, insanlar onun hansı “yuvanın quşu” olduğunu anlasınlar, ziyanlı yoldan zamanında geri çəkilsinlər.



Elə götürək erməni təxribatı nəticəsində baş vermiş Tovuz hadisələrini və bu hadisələr zamanı xalqın paytaxtda ümummilli yürüş etməsini. Milli-vətənpərpərvərlik ruhunda küçələrə axışan minlərlə soydaşımız düşmənə meydan oxuyur, yağılarla döyüşməyə hazır olduqlarını şüar olaraq çağırırdılar. Ancaq bu qürurverici addımdan çirkin məqsədləri üçün istifadə edənlər də tapıldı və onların başında dayananlardan biri də məhz AXCP sədri Əli Kərimlinin olması artıq sübuta yetirlib.

**Xəyanətin nə buynuzu, nə quyruğu, nə də başqa heç nəyi olmur...**

Bunu isə biz deyil, elə Milli Məclis binasına soxularaq təxribat yaratmaq istəyən qrupların əməllərindən agah olan, elə buna görə də AXCP sıralarından istefa verdiyini bəyan edən cəbhəçi deyir. Məlum olub ki, ACXC-nin rəyasət heyətinin üzvü Asif Yusifli çağırış edərək, cəbhəçilərin yürüşə qatılmalarını istəyib və özündə vətənpərvərlik borcu hiss edənlər əsas məsələdən xəbərdar olmadan yürüşə qatılıblar. Lakin...

Lakin sonradan nəyin-nə olması tam çılpaqlığı ilə ortaya çıxır. “Biz orada Asif Yusifli ilə görüşdük”, deyən cəbhəçi əlavə edib ki, 4Asif onlara Milli Məclisi tutacaqlarını, hakimiyyəti ələ keçirəcəklərini, üstəlik Əli Kərimlinin “prezident” olacağını bildirib. SİTAT: “Mən gördüm ki, onun məqsədi orduya dəstək yox, orduda qarşıdurma yaratmaq, xalqı bir-birinə qarşı çıxarmaqmış. Mən gördüm ki, məqsəd məni və mənim kimi insanları aldatmaqmış, yüzlərlə də insan aldanıbdır. Buna görə də mən AXCP-dən istefa verirəm, xahiş edirəm ki, müvafiq qurumlar bu barədə araşdırma aparsın və tədbirlər görsün”.

Göründüyü kimi, xəyanətin nə buynuzu, nə quyruğu, nə də başqa heç nəyi olmur, xəyanət sözünün özündə elə onun nə demək olduğu göz önündədir. Hər halda, cəbhəçinin sosial şəbəkə vasitəsi ilə açıqladığı faktların müvafiq qurumların nəzarəti altında olmasına da şübhə etmirik.

***Rövşən RƏSULOV***

# “Bu dəfə də dövlətlə, hakimiyyətlə xalq arasında uçurum yarada bilmədilər”

Cənab Prezidentin də dediyi kimi, istər daxildə, istərsə də xaricdə anti-Azərbaycan qüvvələr əl-ələ, səs-səsə verərək Azərbaycana qarşı aqressivləşiblər. Bu sözləri SİA-ya verdiyi açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib. Siyasi şərhçi xüsusilə vurğulayıb ki, hətta əvvəlki illərdən, əvvəlki dövrlərdən fərqli olaraq onlar bütün hədləri aşıblar.



“Özəlliklə, Azərbaycanın içərisində oturub, Azərbaycanın çörəyini yeyən, suyunu içən, havasını udan və faktiki olaraq düşmənə xidmət edənlər bunu açıq şəkildə etməkdən belə çəkinmirlər. Təbiidir ki, Azərbaycan xalqının böyük çoxluğu o adamlara nifrətini bəyan edir, açıq şəkildə ifadə edir, eləcə də dövlətimiz həmin adamların zərərsizləşdirilməsi üçün qanunlar çərçivəsində tədbirlər görür. Bu da əlbəttə ki, işğalçı Ermənistanı və onun havadarlarını daha da əsəbləşdirir. Çünki, onlar öyrəşmişdilər ki, istər Azərbaycanın daxilində, istərsə də xaricində olan anti-milli qüvvələr belə məqamda ölkəmizə qarşı çıxış etsinlər və ermənilər də bundan istifadə etsinlər. Amma bu dəfə elə alınmadı. Minlərlə, on minlərlə vətəndaşımız küçələrə çıxdı, Ali Baş Komandana dəstəyini ifadə etdi, döyüşlərdə dövlətimizin, ordumuzun arxasında olduğunu əməldə göstərdi və təbiidir ki, anti-milli qüvvələrin gücünü beləliklə də zəiflətmiş olduq. Ona görə də Ermənistan Azərbaycanın strateji obyektlərindən olan Mingəçeviri vurmaqla bağlı hədələr səsləndirdi, bununla yanaşı dünyaya da şikayət edir ki, Azərbaycan Metsamoru vuracaq. Təbii ki, Azərbaycan bütün bölgəni fəlakətə qərq edəcək Metsamor faciəsini yaşatmaq istəməz. Çünki, Metsamor sadəcə olaraq Ermənistan deyil. Metsamor həm də Azərbaycan, Türkiyə, İranın bir hissəsidir və bu, bütövlükdə ölkələrimizi əhatə edəcək bir fəlakət ola bilər ki, Azərbaycan belə bir fəlakətə təbii ki, heç vaxt getməz. Lakin Ermənistan buna baxmayaraq beynəlxalq təşkilatlara hay-küy salır ki, guya Azərbaycan oradakı AES-i vurmağa hazırlaşır. Bu da düşmənin gücsüzlüyündən, artıq əlindəki imkanların tükənməsindən xəbər verir.

Həqiqətən də, göründüyü kimi, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının toplantısında Paşinyan necə rəzil duruma düşdü. Bunu bütün dünya da seyr etdi. Ümumiyyətlə, üzvü olduğu bir təşkilatdan belə Paşinyan, Ermənistan dəstək ala bilmədi. Niyə? Ona görə ki, Azərbaycanın işi haqq işidir və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv olan dövlətlər də ədalətli davranmaq məcburiyyətindədirlər. Ona görə də Paşinyan burada heç nə edə bilmir. Eyni zamanda Paşinyanın istər bir tərəfdən Qərbə meyillənməsi, digər tərəfdən Rusiyadan kömək istəməsi, bütün bunlar onun qeyri-müəyyən mövqeyinin olmasını göstəricisidir və təbiidir ki, istər Qərb, istərsə də Rusiya, bütövlükdə Şərq belə qeyri-müəyyən siyasətlə barışmaq fikrində deyil. Azərbaycanın isə mövqeyi, Ermənistandan fərqli olaraq həmişə birmənalı olub. Sadəcə olaraq ölkəmiz, eləcə də ölkə rəhbəri Cənab Prezident İlham Əliyev bütün dünyada etibarlı tərəfdaş, etibarlı lider kimi qəbul olunur. Ona görə də Azərbaycanın indiki mərhələdə heç bir problemi yoxdur. Bu Tovus döyüşləri zamanı beynəlxalq ictimaiyyət, dünya ictimaiyyəti Azərbaycanın haqlı mövqeyini olduğu kimi qəbul etdi. Yəni baxmayaraq ki, ermənilər əllərindən gələni etdilər, öz təsir dairələrində olan mediadan istifadə etdilər, çirkin kampaniyalar apardılar, amma ağlı başında olan beynəlxalq təşkilatlar, dövlətlərarası qurumlar, beynəlxalq ictimai birliklər, eləcə də ümumdünya qlobal mediası Azərbaycanın haqlı mövqeyini işıqlandırmalı oldu. Yəni, bu bir daha onu göstərir ki, istər daxildəki anti-milli qüvvələr, istərsə də Azərbaycanlı olub, xaricdə oturub Azərbaycana qarşı ermənilərlə bir səngərdə mövqe tutanlar bu dəfə də peşimançılıq yaşadılar və əlbəttə ki, dövlətlə, hakimiyyətlə, özəlliklə də Ali Baş Komandan Cənab İlham Əliyevlə Azərbaycan xalqı arasında uçurum yarada bilmədilər”, deyə Azər Həsrət bildirib.

***İnam Hacıyev***

# Sabiq spiker müxalifətçiləri dövlətçilik maraqlarından çıxış etməyə çağırıb

*"Hər bir vətəndaşın öz bildiyi səviyyədə Ermənistanı işğalçı və terrorist ölkə kimi göstərilməsi olduqca vacibdir"*



Bu arada sabiq spiker, hazırda ABŞ-da yaşayan Rəsul Quliyev sosial şəbəkə vasitəsi ilə bəyanat yayıb və həmin bəyanatında bildirib ki, müxalifətyönlü olmasına baxmayaraq, ümummilli məsələdə dövlətin və hakimiyyətin apardığı siyasəti tam olaraq dəstəkləyir. "Dünyanın bütün ölkələrində yaşayan (daha çox da müxalifətdə olan) bütün azərbaycanlıların Ermənistan-Azərbaycan konfliktinə münasibətdə aktiv mövqe tutmaqları olduqca təqdirə layiqdir", qeyd edən eks-spiker hesab edir ki, hər bir vətəndaşın öz bildiyi səviyyədə Ermənistanı işğalçı və terrorist ölkə kimi göstərilməsi olduqca vacibdir.

Onun sözlərinə görə, belə bir kövrək məqamda iqtidarlı müxalifətli hər birimiz birləşməyi bacarmalı, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi istiqamətində vahid mövqedən çıxış etməliyik: "Burada iqtidarla yanaşı müxalifətin də üzərinə böyük məsuliyyət düşür. Müxalifət düşərgəsində olan liderlər cəbhədə döyüşlər getdiyi bir zamanda arxa cəbhədə iqtidara qarşı yeni cəbhə açmamalı və bacardıqca bütün umum-küsülüyü kənara qoyaraq dövlətçiliyin yanında olmalıdırlar".

"Qarabağ konfiliktində bizim bir millət olaraq bir düşmənimiz var, bu da Ermənistandır!"

"Şəxsən mən öz adıma açıq bəyan edirəm ki, bir sıra fundamental məsələlərdə hakimiyyətlə ciddi fikir ayrılığım olsa da, Qarabağ məsələsində dövlətin və şəxsən Prezident Əliyevin yanında olduğumu, Qarabağ mövzuda onun yürütdüyü siyasətə açıq dəstək verdiyimi bəyan edirəm! Qarabağ konfliktində bizim bir millət olaraq bir düşmənimiz var, bu da Ermənistandır!", qeyd edən Rəsul Quliyev yanlış yolda olan, vədlərinə sadiq olmayan müxalifət cinahlarını da dövlətçilik maraqlarından çıxış etməyə çağırıb.



## Anar Xəlilov: "Söyüş və təhqirlərlə mübarizə aparmaq aşağılıqdır"

"Milli Şura"nın növbəti videokonfransında Cəmil Həsənli, Qənimət Zahid, Gültəkin Hacıbəyli, Məmməd Rahim və digərləri Mehman Əliyev təhqir etdilər, onu İlqar Məmmədovun yerişini yerimәkdə günahlandırdılar və Natiq Cəfərlini ittiham hədəfinə çevrildi. Bütün bunlar qurumun səviyyəsizliyini göstərir. Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov "Səs" qəzetinə açıqlamasında deyib.

O bildirib ki, özünü müxalifət adlandıran "Mİlli Şura" adlı qurum xalq arasında dayaqlarını itirdikcə sivil siyasi mübarizə metodlarından uzaqlaşır və çirkin şouya bənzər söyüş ritorikasına üstünlük verərək qara yaxma, təhqir metodlarına üstünlük verir: "Təbii ki bu da artıq insanlarda onlara qarşı ikrah hissi yaradır. Xüsusilə müşahidə olunur ki, bu şəxslər hər hasısa bir Azərbaycan üçün çətin məqam yarananda daha çox fəallaşırlar və kömək etməkdənsə, həmrəylik nümayiş etdirməkdənsə mane olmağa və görülən işlərə qara yaxmağa başlayırlar. Bir növ desək təxribatçı mövqe seçillər. Biz bunu həm pandemiya dövründə, eyni zamanda ermənilərin xain Tovuz hücumu dövründə də müşahidə etdik. Bu insanlar sosial şəbəkələrdə fəallaşaraq insanları çaşdırmaq və hökumətin gördüyü təqdirəlayiq addımlara qarşı əks təbliğat aparmaqla məşğul idilər, bu gün də buna çalışırkar. Eyni zamanda 14 iyul hadisələrində də bu insanlar təxribat xarakterli hərəkətləri ilə bir daha öz əməllərinin nədən ibarət olduğunu sübut etdilər. Bu insanlar iqtidarla yanaşı, normal sivil metodlarla mübarizə aparan müxalifət qüvvələrinə də qarşı qarayaxma üsullarla mübarizə aparır kim bunların sözünü demirsə onu düşmən elan edirlər. Bunlarda artıq psixoloji vəziyyət xəstəlik səviyyəsinə çatmışdır. Bunlara elə gəlir ki, xalqın sözünü ancaq bunlar deyir, özlərini lider kimi hiss edir və hər kəsə yol göstərməklə məşğuldurlar. Eyni zamanda özləri söyüş, təxribat metodlarından istifadə edərək hökuməti özlərinə qarşı addım atmağa məcbur edərək bu yolla beynəlxalq aləmə göstərməyə çalışırlar ki, amandı qoymayın bizə təzyiq edirlər. Əslində isə atdıqları addımlar tam qanuna zidd olaraq təxribat və pozuculuq əməllərdir ki, bu da qanunla yol verilməzdir. Özlərini təcrid etməklə guya bunlara blokada tətbiq olunur deyib qışqırmaqla ona səy göstərirlər ki, xarici havadarlarına göstərə bilsinlər guya əsas müxalifət bunlardır. Dövlət də bunlara qarşı guya mübarizə aparır".

A.Xəlilov qeyd edib ki, qondarma qurum olan "Milli Şura"nın sosial bazası bu gün hamıya məlumdur: "Nəyə qadir olduqları da ortadadır. Heç bunlara qarşı mübarizə aparan da yoxdur siyasi mənada. Bunu bunlar dərk edir və buna görə də qanunları pozmaq yolu tutaraq təxribatçı əməlləri ilə cinayətə əl atırlar. Təbii ki, belə olduğu təqdirdə hüquq mühafizə orqanları lazımi tədbirləri görməyə məcbur olur və bunlar da əllərində bunu bayraq edərək qışqırırlar ki, qoymayın bizə qarşı təzyiq edilir. Bu çox gülünc metoddur və eyni zamanda acınacaqlıdır. Bunların bu əməllərini ifşa edən ziyalılara və sivil qaydalarla hərəkət edən digər müxalif insanlar qarşı isə çox amansızcasına təhqirlərə yol verərək sosial şəbəkələrdə ifadələr işlədirlər. Bu insanların məqsədi aydındır nə yolla olursa olsun öz siyasi məqsədlərinə çatmaq. Bunlar xalqı düşünmür sadəcə onu çaşdırmaqla istifadə etməyə çalışır. Arxasında sosial bazası olan xalq olan siyasi qüvvə heç vaxt dövlətçilik üçün təhlükəli olmur. Əksinə arxasında sosial bazası olmayan siyasi avantüraya söykənən kiçik qrup dövlətçilik üçün daha təhlükəli olur. Çünki onlar xalqın dəstəyini qazanmadıqları üçün ancaq təxribatlardan istifadə edirlər. Xalq adından danışaraq etdikləri təxribatlara haqq qazandırmağa çalışırlar. Silahlı terror təşkilatları ilə bu cür qrupların əslində heç bir fərqi yoxdur. Dövlətin gördüyü bütün addımları, ziyalıları, normal müxalif qüvvələri, hətta xalqı belə qaralamaqla, söyüş və təhqirlərdən istifadə etməklə apardıqları fəaliyyət bunu sübut edir. Bunlar birdəfəlik dərk etməlidirlər ki, tutduqları yol iflasa məhkumdur. Xalq 90-cı illərin acı təcrübəsini yaddan çıxartmayıb. Heç dünya da əvvəlki deyil. Artıq insanlar ağı qaradan seçməyi bacarırlar. Yeni nəsil yetişib, onların baxışı başqadır. Yaxşı olar ki, insanları təhqir etməkdənsə , təxribatla məşğul olmaqdansa düşünərək vaxtında əməllərindən əl çəksinlər. Hərçənd buna inanmıram. Azərbaycan dövlətçiliyi bu gün hər bir məsələdən üstündür, ərazi bütövlüyümüz bizim əsas məqsədimizdir. Bu yolda dövlətimizin gücü və qətiyyəti xalqa məlumdur. Xarici və daxili düşmənlərə qarşı dövlətimizin gücünə inanırıq və bu yolda da xalq olaraq onun yanındayıq. Düşmənə xidmət edən bütün təxribatların qarşısı qətiyyətlə alınacaq. Söyüş və təhqirlərlə mübarizə aparmaq aşağılıqdır, bunu özlərinə yaraşdıranlar isə heç vaxt uğur qazanmayacaq".

**Gülyana**

# "Ermənistan birmənalı olaraq işğalçı tərəf kimi qəbul edilir və ediləcək"



"İyulun 20-də ABŞ-ın Nümayəndələr Palatası respublikaçı Stiv Şabo və demokrat Stiv Koenin təqdimatları əsasında səsvermə nəticəsində National Defence Authorisation Act sənədinə düzəlişlər qəbul edildi. Bu, nə deməkdir? Bu qanun qısaca olaraq, NDAA parlament tərəfindən ABŞ Müdafiə Nazirliyinin xarici istiqamətdəki maliyyə əməliyyatlarını tənzimləyir. Qeyd etmək lazımdır ki, ABŞ-da 2 belə qanun var - "National Defence Authorisation Act" NDAA və "Appropriations to the Departmen of Defense" (DOD)". Bunu SİA-ya politoloq Zaur Məmmədov deyib.

Politoloqun sözlərinə görə, ABŞ tərəfindən Cənubi Qafqaza maliyyə yardımlarına nəzər salsaq, son illərin statistikası onu deməyə dəlalət edir ki, bölgədə Azərbaycana yardımların sayı bu istiqamətdə artmaqda idi: "Əgər əvvəllər bu xətt ilə ölkəmizə yardımlar 3 milyona qədər idisə, 2018-ci ildə 58.6 milyon dollar, 2019-cu ildə isə, 42,9 milyon dollar olub.

Eyni zamanda, 2018-2019-cu illər ərzində sərhəd qoşunları üçün ABŞ-ın "Caspian Guard" proqramı çərçivəsində ölkəmizə 100 milyon dollarlıq yardım da edilib. Bu yardım çərçivəsində sərhədlərdə təhlükəsizliyin təminatını artırmaq, terrorizm təhdidlərinin qarşısını almaq və onlardan qorunmaq, kütləvi qırğın silahlarının yayılmasına mane olmaq, narkotrafik, insan alveri və digər transmilli təhdidlərlə mübarizəni daha da aktivləşdirmək nəzərdə tutulurdu.

Qayıdaq 2021-ci maliyyə ili üzrə "Milli Müdafiə Maliyyələşmə Qanunu" (National Defense Authorization Act - NDAA) layihəsinə. NDAA-nın kifayət qədər statuslu qanun olmasını onun ABŞ-ın Çinə və Rusiyaya qarşı sanksiyalarının həm də bu akt vasitəsilə reallaşdırılmasında görmək olar. Məsələn, Çinlilərin "Huawey" şirkətinin ABŞ-da fəaliyyətinin məhdudiyyəti, Rusiyanın Almaniyaya çəkdiyi "Şimal axını 2" layihəsində şirkətlərə qoyulmuş sanksiyalar da NDAA çərçivəsində qəbul edilib. Bu son qərar isə bölgədə işğalçı və işğala məruz qalan dövlətləri təsbit etmiş oldu.

Qeyd edək ki, ABŞ parlamentarizm tarixində bu dəyişikliklər erməni diasporuna və Ermənistana vurulmuş ən böyük zərbədir. Təsadüfi deyil ki, ABŞ-dakı erməni diasporları və lobbist qruplar ciddi şəkildə parlamentə təzyiqlərini artıraraq etirazlarını davam etdirməkdədirlər. Buna həm də ingilisdilli nəşrlərdə qanuna dəyişikliklərlə bağlı ermənilərə yaxın olan internet resursların etirazını aid edə bilərik.

Beləliklə, NDAA-ya dəyişikliklər nəticəsində Ermənistan bir daha növbəti sənəddə işğalçı dövlət kimi qeyd olunur və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıdışı tələb olunur. Ukrayna, Moldova, Gürcüstan və Azərbaycan kimi ölkələrdə işğal olunmuş ərazilərdən köçkün düşmüş və o ərazilərdə qətlə yetirilmiş həmin ölkələrin vətəndaşları barədə hesabatın Dövlət katibi tərəfindən Müdafiə katibi ilə əlaqələndirilməklə Konqresə təqdim edilməsi barədə 296 saylı düzəliş Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü təsdiqləyir. Bu düzəlişdə işğal olunmuş ərazilərdən köçkün düşmüş və həlak olmuş əhali barədə məlumatların ABŞ Dövlət və Müdafiə departamentləri tərəfindən birgə hesabatın Konqresə təqdim edilməsi nəzərdə tutulur.

Bu sənəd Azərbaycanın torpaqlarının işğal olunmasını sübut edən növbəti beynəlxalq sənədlərdən biridir. Beləliklə, BMT-nin Təhlükəsizlik şurasının qətnaməsindən tutmuş ayrı-ayrı dövlətlərin və beynəlxalq təşkilatların münaqişə ilə bağlı Azərbaycanın lehinə qəbul etdikləri qərar və qətnamələr, verilən bəyanatlar və ən nəhayət, 20 iyul tarixində ABŞ konqresinin qəbul etdiyi qanun ( NDAA-ya dəyişikliklər) sülh danışıqlarında rəsmi Bakının mövqeyini möhkəmləndirməklə yanaşı, həm də Bakıya işğal altındakı torpaqları müharibə yolu ilə geri qaytarmaq hüququnu verir. Bu isə, o deməkdir ki, istər danışıqlarda, istərsə də silahların işə salınması zamanı Ermənistan birmənalı olaraq işğalçı tərəf kimi qəbul edilir və ediləcək".

**Ceyhun Rasimoğlu**

# "KTMT yardım etməsə, Qərb ermənilərə heç kömək etməyəcək"



Ermənistan Azərbaycan sərhədində təxribat törətməklə KTMT-ni də bu məsələyə qatmaq istəyirlər. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədri Araz Əlizadə deyib. Partiya sədrinin sözlərinə görə, ermənilər anlamırlar ki, həmin ölkələrin də kəşviyyatları, sputnikləri var və onlar təxribatı kimin törətdiyini dəqiq bilirlər.

"Ermənilər istəyirlər ki, KTMT-ni bu məsələyə qatsınlar, Azərbaycanı KTMT ilə üz-üzə qoysunlar. Lakin buna heç də nail ola bilməyəcəklər. Ermənistanda Paşinyanın vəziyyəti zəiflədikcə, onlar çoxlu sayda, ayrı-ayrı təxribatlara əl atacaqlar. Lakin bu onu xilas edə bilməyəcək. Paşinyan Ermənistanda elə bir şərait yaratmaq istəyir ki, KTMT-nin onlara kömək etmədiyini göstərsin və təklif etsin ki, ermənilər Qərbə üz tutsunlar. O, elə düşünür ki, Ermənistana KTMT yardım etməsə də Qərb yardım edəcək. Bu bir xülyadır. KTMT yardım etməsə, Qərb onlara heç kömək etməyəcək. Odur ki, Ermənistan təxribata görə lazımlı cəza almayanadək onlar bu təxribatlara əl atacaqlar. "Arxalı köpək qurd basar" prinsipinə uyğun olaraq ermənilər özlərinə arxa axtarırlar", deyə Araz Əlizadə bildirib.

Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Azərbaycançılığın mahiyyəti

***Azərbaycançılıq ideyaları özünün tarixi etibarı ilə qədim dövrlərlə səsləşir. Azərbaycançılıq ideyaları Azərbaycan xalqma məxsus etnik və psixoloji amillərlə, ictimai təfəkkürün qaynaqları ilə, xalqın məişət həyatı ilə dərindən bağlı olan düşüncə və təsəvvürlər bazasmda yaranır. Azərbaycançılıq ideyalarının formalaşmasında insan və cəmiyyət amili xüsusi yer tutur. Hər bir insan cəmiyyətin bir üzvüdür. Cəmiyyətdə özünəməxsus mövqe tutan hər bir şəxs bu və ya digər ideyanm yaradıcısı ola bilər. Lakin hər bir fərdi ideya cəmiyyətin ümumi psixologiyasını, təsəvvür və təfəkkürünü təyin edə bilmir. Cəmiyyət həyatı üçün ümumi xarakter daşıyan ictimai fikir və düşüncələr zaman - zaman yetkinləşərək bütöv bir sistemə çevrilir. Cəmiyyət həyatında bütövləşən ictimai ideyalar cəmiyyət üzvlərinin ictimai xarakterini təyin edir. Bütün 3 ictimai ideyaların mahiyyəti milli şəxsiyyət obrazının yaranması ilə nəticələnir.***

Belə ki, məsələn azərbaycançılıq ideyalrı mühitində formalaşan azərbaycanlı obrazı beynəlxalq ictimaiyyətə özünəməxsus xarakterə malik olan milli bir şəxsiyyət nümunəsi kimi təqdim edilir. Azərbaycançılıq ideyalrı ümumilikdə azərbaycançılıq anlayışının özünü formalaşdırır. Azərbaycançılıq ideyalrı azərbaycançılıq anlayışı ilə üzvi şəkildə bağlıdır. Yəni bu ideyalar mövcud olmasa, yaranmasa, formalaşmasa, yetkinləşməsə azərbaycançılıq anlayışından danışmaq mümkün deyildir. Başqa sözlə, azərbaycançılıq ideyalrı bütövləşir, ümumiləşir və azərbaycançılıq anlayışını yaradır. Azərbaycançılıq anlayışının yaranmasında ümumiləşən azərbaycançılıq ideyalımın bazasını ictimai təfəkkürün mövcudluğu, milli - mənəvi dəyərlər və müstəqil dövlətçilik ənənələri təşkil edir. Azərbaycançılıq anlayışının özü isə cəmiyyət həyatında çox mühüm ictimai, siyasi, ideoloji və hərəkətverici əhəmiyyət daşıyan milli şüur mənasında başa düşülür. Beləliklə, azərbaycançılıq anlayışının daxili məzmununu qısa olaraq belə xarakterizə etmək mümükündür: azərbaycançılıq ictimai təfəkkürün canlanması ilə yaranan, milli mənəvi dəyərlər bazasında yetkinləşən və müstəqil dövlətçilik ənənələri əsasında formalaşan milli şüurdur.

Bu o deməkdir ki, ictimai təfəkkürdə milli ideyalar yaranmasa milli - mənəvi dəyərlər də meydana gələ 4 bilməz. İctimai təfəkkür bazasında yaranan milli - mənəvi dəyərlər isə dövlətçiliklə qorunur, zənginləşir və inkişaf edir. Dövlətçilik olmadan milli ideyalar ancaq lokal səviyyədə qalmaqla məhdudlaşır. İctimai təfəkkür cəmiyyətlə birlikdə yaşadığı üçün həm tarixidir, həm də müasir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev öz çıxışları zamanı milli ideyaların formalaşmasında, tarixliyin və müasirliyin dialektik vəhdət təşkil etdiyini dönə-dönə bəyan etmişdir. Ulu Öndər Heydər Əliyev göstərirdi ki, yalnız azərbaycançılıq, Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələrinin bərabərliyi və əməkdaşlığı, milli həmrəylik, vahid mənəvi dəyərlərin qorunması, ümumi tarix və mədəniyyət, ümumi ünsiyyət dili etnik mənsubiyyətindən asılı olmayaraq hər bir azərbaycanlıya Ümumi Vətənin qurulmasına öz töhfəsini verməyə kömək edəcək. Akademik Ramiz Mehdiyev bu münasibətlə yazır: "Heydər Əliyev 1969-cu ildən başlayaraq azərbaycanlılarda özünə inam hissi formalaşdırır, milli maraqların müdafiə olunmasının mümkünlüyünü təsdiq edir, azərbaycanlıları milli inkişaf naminə birləşdirirdi. Heydər Əliyevin siyasəti nəticəsində "millət" anlayışının strukturuna özünüidentifikasiyanın etnik, dini, sosiomədəni, siyasi və bütün başqa kollektiv formaları daxil edilmişdir. Azərbaycançılıq ideyası Azərbaycanda yaşayan və onu özlərinin ümumi Vətəni hesab edən bütün etnik qrupların ideyası kimi çıxış etmişdir. Bu dövrdən etibarən milli identifikasiyanın yeni forması daha geniş və yenilənmiş formatda "azərbaycançılıq" ideologiyası ilə eyniləşdirilir". Azərbaycan sabit dövlətdir. Son dövrün nəticələri göstərir ki, dövlətimiz ayaq üstə möhkəm dayanmışdır və möhkəm siyasi, iqtisadi, mədəni və sosial platforma üzərində inkişaf edir. Bəs, müasir mərhələdə milli ideyanın inkişafı üçün hansı şərtlər əsasdır? Bu suala akademik Ramiz Mehdiyev belə cavab verir: "Heç bir şübhə yoxdur ki, XXI əsrdə iqtisadi tərəqqiyə, azad və layiqli həyata, millətin müstəqilliyinin və təhlükəsizliyinin güclənməsinə aparan yol demokratik prinsip və normaların sosial və siyasi praktikaya tətbiqindən keçir... Ancaq demokratikləşmənin özü də milli ideyaya bağlı olmasa, sosiumun milli xüsusiyyəti nəzərə alınmasa uğursuzluğa məhkumdur. Milli ideyanın millətin inkişafına, dövlətin tərəqqisinə tam dolğun xidmət etməsi üçün o, demokratiyanı "kəməndinə salmalıdır", cəmiyyəti innovasiyalı modernləşməyə istiqamətləndirməlidir. İnsanların şüuruna hakim kəsilən milli ideya millətin konkret fundamental məqsəd və vəzifələrinə nail olmaqda reallaşmalıdır". Akademik Azərbaycançılıq ideologiyası əsasında Azərbaycanda vətəndaş dövləti yaratmağın qısa tərifini belə verir: "Azərbaycan üçün vətəndaş cəmiyyəti elə bir sosial mühitdir ki, orada bütün sosial və etnik qruplar dinc yanaşı yaşayır, özlərini ölkənin siyasi və iqtisadi inkişafında, bütün millətlərin nümayəndələrinin birgə yaşayış atmosferinin mütəmadi mənəvi-psixoloji yeniləşməsində dərin marağı olan bərabərhüquqlu vətəndaşları kimi hiss edirlər. Beləliklə, müasir dövrdə milli ideyanın vətəndaş cəmiyyətinin maraqları xaricində reallaşdırılmasının perspektivi yoxdur".

R.Mehdiyevin fikrincə, "azərbaycançılığın" mahiyyəti müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların vəhdətidir. O, ənənəvi mifləri və rəmzləri özündə birləşdirir, lakin bunlardan milli dövlətin simasında yeni fenomenlərin qorunması və əsaslandırılması üçün istifadə edir. "Azərbaycançılığın" gücü ondadır ki, o, xalqın milli-mədəni eyniyyətini həm müdafiə etməyi və həm də qoruyub saxlamağı bacaran dövlətlə insanların fərdi sosial-mədəni meyllərini üzvi şəkildə birləşdirməyə qadirdir. Şübhəsiz ki, öz birliyinə mənsubiyyət hissi həyatın özünə də məna və əhəmiyyət verir, qarşılıqlı məsuliyyət və qarşılıqlı əlaqə hissini möhkəmləndirir və beləliklə, tənhalıq və qəriblik hissini azaldır. Bu ideologiya Azərbaycanda vahid birlik, vahid sosium formalaşdırır. Görünür, bu baxımdan bir sıra Qərb tədqiqatçılarının dəlilləri əsassız deyildir. Onlar hesab edirlər ki, insan "möhkəm köksalma və demək olar ki, tayfa mənsubiyyəti duyğuları doğuran tarixi ənənələrin mövcudluğu şəraitində özünü müdafiə olunmuş kimi hiss edə bilər" . Üstəlik, cəmiyyətin mürəkkəbləşməsi, modernləşməsi, kosmopolitləşməsi, simasızlaşması və buna müvafiq surətdə köklərin itirilməsi ilə bu ehtiyac nəinki azalmır, əksinə, müəyyən şəraitdə qat-qat güclənir. Belə vəziyyətdə məhz dövlət - insan cəmiyyətinin bu özünütəşkil forması öz növbəsində, tam olmasa da, bir çox, bəlkə də bütün sosial fenomenlərin formalaşması və institusionallaşmasının amilinə çevrilir. "Mən - sivilizasiya"nın inikası kimi "azərbaycançılıq" hər kəsin hüquq və azadlıqlarının təmin olunduğu siyasi və dövlət quruluşunun milli mahiyyətinə, inkişaf strategiyasına, formasına etnosiyasi baxış kimi çıxış edir. "Azərbaycançılıq" cəmiyyətin normativ dəyərlərinin vəhdətinə - dövlət hüquq düşüncəsinin, əmək və işgüzar etika tərbiyəsinə, mənəvi həyatın dəyərlərinə qovuşmağa səmtlənir və beləliklə də, mühafizəkarlığa yaxınlaşır. O, milli maraqları ifadə edən güclü dövlət hakimiyyətinin və yüksək milli intizamın, formalaşmış milli özünüdərkin olmasını tələb edir, ən müxtəlif sosial təbəqələrdə həmrəylik axtarır, daimi, lakin mötədil, millətin və dövlətin öz potensialından irəli gələn reformizmi təbliğ edir. "Azərbaycançılıq" ideyasının dərk olunmasının əsasında Azərbaycan xalqının tarixi, mənəvi-əxlaqi, mədəni ənənələri zəminində birlik ideyası durur və bu, nəinki indi, həm də uzaq gələcəkdə azərbaycanlıların təkcə bir yox, bir çox nəsillərinə xidmət edəcəkdir və müstəqillik, milli eyniyyət tezliklə həmin nəsillər üçün həyatı, azadlığı dərk etməyin ayrılmaz atributlarına çevriləcəkdir. Bu gün biz Azərbaycanda milli ideologiyanın formalaşmasının şahidiyik. Millətin potensialının və ölkəni tərəqqiyə, firavanlığa doğru aparmağa qadir siyasi elitanın olması onu göstərir ki, neokonservatizmin milli forması kimi "azərbaycançılıq" milli ideologiyanın əsasıdır və Azərbaycan dövlətinin bütün tarixi boyu da əsası olaraq qalacaqdır "Kim özünü azərbaycanlı hiss edirsə, o, azərbaycanlı sayıla bilər" tezisi təkcə azərbaycanlılar kimi doğulanlar üçün deyil, həm də etnik bağlılığı olmadığı halda bu ölkənin vətəndaşları olanlar üçün aktualdır.

Son illərdə Azərbaycan bütün azərbaycanlıların Vətəninə çevrilib və universal dəyərlərin daşıyıcısı statusu qazanıb. Prezident İlham Əliyev elə siyasət həyata keçirir ki, orada milli ideya özündə mütərəqqi və hərtərəfli iqtisadi inkişafı, dünya birliyinə inteqrasiyanı, həm də milli ruhu və özünəməxsusluğu qoruyub saxlamağı ehtiva edir. Məhz Azərbaycançılıq ideologiyasının cəmiyyətdə bərqərar olması səbəbindən uzun müddətdir ki, Azərbaycanda daxili sabitlik hökm sürür. Özü də bu tendensiya qonşu ölkələrdə baş verən vətəndaş müharibələrinin, kütləvi iğtişaş və qarşıdurmaların fonunda baş verir. Azərbaycan cəmiyyəti isə belə təhlükələrdən sığortalanmışdır. Çünki vətəndaşlar ölkə hakimiyyətinin daxili siyasəti stabil və normal olaraq həyata keçirdiyinin fərqindədirlər. Bununla belə bizim xalq dünyada, xüsusilə də bizimlə bağlı olan regionlarda baş verənlərlə daha çox maraqlanır. Bu da təbiidir. Çünki həmin regionlarda gedən proseslər bizə birbaşa və dolayı təsir edir.

Daha doğrusu qlobal qüvvələr bu təsirin güclü olması üçün müvafiq işlər həyata keçirirlər. Bunu həyata keçirmək üçün isə Azərbaycanda fəaliyyət göstərən bəzi, QHT, KİV orqanlarından, bəzi ictimai xadimlərin imkanlarından istifadə edirlər. Azərbaycanda əhalinin siyasi mövqeyini formalaşdırmağa cəhd edən yüzlərlə KİV və QHT var. Belə media orqanları idarə olunduqları xarici mərkəzlərdən gələn tapşırıqla onların maraqlarına cavab verən məsələlərdə xalqı səhv yönləndirməyə çalışırlar. Yəni, hər hansı bir məsələyə münasibətdə Azərbaycanın maraqları arxa plana atılır. Başqa dövlətlərin maraqlarından informasiya yayılır. "Beşinci kolon" kritik situasiyalarda öz fəaliyyətini daha da gücləndirir, Azərbaycan cəmiyyətinin fikrini yönləndirməyə cəhdlər edir. Bu məqsədlə Qərb dairələri dini və etnik cəmiyyətləri qızışdırır, onlara yardımlar edir, bu icmaların əli ilə ölkədə vəziyyəti gərginləşdirməyə çalışırlar.

***Vahid Ömərov, f.ü.f.d. dos.***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

SƏS

23 iyul

Son səhifə

# "Barselona"da istirahət



"Barselona"nın futbolçuları istirahətə buraxılıb. Qol.az "Marca"ya istinadən xəbər verir ki, Kataloniya təmsilçisinin baş məşqçisi Kike Setyen futbolçulara bir həftəlik istirahət verib. Oyunçular iyulun 28-də məşqə qayıdacaqlar. Qeyd edək ki, "Barselona" La Liqada mövsümü ikinci sırada tamamlayıb. Komanda avqustun 8-də, "Kamp Nou"da "Napoli" ilə Çempionlar Liqasının 1/8 finalının cavab oyununa çıxacaq. Komandalar arasındakı ilk matç 1:1 hesablı bərabərliklə bitib.

# "Neftçi" ilə qrup mərhələsindən də irəli gedə bilərik"




***"Bu böyük klubla müqavilə imzaladığım üçün çox xoşbəxt və həyəcanlıyam. Ötən il Bakıda oldum və sözün həqiqi mənasında şəhərə vuruldum. "Neftçi"nin bir neçə oyununu internet vasitəsi ilə izləmişəm. Onlardan biri də "San Siro"da Milan "İnter"inə qarşı keçirilmiş matçdır. Bilirəm ki, "Neftçi" böyük tarix və ənənəsi olan klubdur". Bu sözləri "Neftçi"nin yeni transferi Sabir Buqrin klubun televiziyasına müsahibəsində deyib.***

Mərakeş əsilli belçikalı dayaq yarımmüdafiəçisi başqa təkliflərinin də olduğunu bildirib. O, "Neftçi"nin layihəsini daha çox bəyəndiyini söyləyib: "Milan "İnter"i ilə İtaliyada 2:2 hesabı ilə nəticələnmiş matça və Rusiyanın "Arsenal" klubu ilə oyunlara baxmışam. Gözləntilərim "Düdelanj"la müqayisədə daha da irəliləməkdir. Düşünürəm ki, "Neftçi" ilə qrup mərhələsindən də irəli gedə bilərik. Əsas məqsədim komanda ilə çempion olmaq və Avropa Liqasında bacardığımız qədər irəliləməkdir".

Buqrin paytaxt təmsilçisinin azarkeşləri barədə də danışıb: "Azarkeşləri internet vasitəsi ilə izlədiyim oyunlarda görmüşəm. Onlarla görüşü səbrsizliklə gözləyirəm. Ümid edirəm ki, koronavirus problemi tezliklə aradan qalxar və azarkeşlərimiz tribunalara gözəl atmosferi qaytararlar". Qeyd edək ki, "Neftçi" Sabir Buqrinlə iki illik müqavilə imzalayıb.

# Kökəlmək istəyənlər gün ərzində dörd dəfə qidalanmalıdırlar

***Arıqlamaq, artıq çəkidən xilas olmaq problemi ilə üzləşənlər olduğu kimi kökəlmək istəyənlər də var. Onlar iki yerə bölünür: iştahasızlıq problemi olanlar və lazımi qədər qidalansalar da, kökələ bilməyənlər.***

Həkim-fitoterapevt Elnur Eldaroğlu həmin problemi şərh edərkən deyib: "Elə adamlar var ki, aclıq hissinin yoxluğundan, qidalanmaq həvəsinin olmamasından şikayətlənir. Qidaya həvəsin olmaması nevrogen və endokrin mənşəli ola bilər. Məsələn, anorik nevrozla üzləşənlər həm çox arıq olur, həm də bir növ yeməkdən küsürlər. Bəzi endokrinoloji xəstəliklər, məsələn, şəkərli diabet zamanı belə hallar olur. Bəzən də hər cür qidalanmaya baxmayaraq, kökəlmənin baş verməməsi hər hansı bir xroniki, parazitar və infeksion xəstəliklərlə əlaqədar ola bilər".



Problemi aradan qaldırmaq üçün düzgün və sağlam qidalanmaq lazımdır. Qidalanma barəsində danışarkən həkim-fitoterapevt deyib: "Gün ərzində dörd dəfə qidalanmaq məsləhət görülür: birinci və ikinci səhər yeməyi, günorta və axşam. Həmin vaxt qida qəbul etmədikdə aclıq hissi itir. Bəzən ayaqüstü qidalanmaq, yüngül qəlyanaltı etmək də kalori və doyma hissi yarada bilir, lakin lazımi vitamin deposu vermir. Məsələn, ikinci səhər yeməyi zamanı kisel və ya meyvə şirələri içmək məsləhət görülür".

# Hamiləlik zamanı qidalanma



***Körpənin sağlamlığının təməli ana bətnində qoyulur. Buna isə yalnız hamilə qadının sağlam qidalanması təminat verə bilər. Hamiləliyin ilk dövrlərindən etibarlı qida rasionuna xüsusi diqqət yetirilməlidir. Qidanın azlığı və keyfiyyətsizliyi müxtəlif problemlərə səbəb ola bilər. Qida qəbulu normadan az olarsa, anemik vəziyyət, dölün inkişafdan qalması, vaxtından əvvəl doğuş və hamiləliyin digər patoloji vəziyyətləri qaçılmazdır.***

Respublika Dəmiryol Xəstəxanasının həkim-ginekoloqu Kəmalə Əliyeva AZƏRTAC-a deyib: "Hamiləlik vaxtı normal çəki artımı körpənin beş aylığına qədər 4,5-5, hamiləliyin sonuna qədər 12-13,5 kiloqrama qədər olmalıdır. Qadın normadan artıq qida qəbul edərsə və bunun xüsusən də hamiləliyin ikinci yarısında baş verməsi preklamasiya, hamiləliyin hipertenziyası, esteteon diabet kimi ağırlaşmaların yaranmasına səbəb ola bilər. Həmin dövrdə çəki artımının normadan artıq olması gizli ödemlərin yaranması şübhəsi yaradır".

Onun dediyinə görə, hamilələrin rasionunda meyvə və tərəvəzlər üstünlük təşkil etməlidir: "Qida piramidası anlayışı mövcuddur, hansı ki, onun əsas hissəsi gec həzm olunan karbohidrat, zülal və az miqdarda yağlardır. Eyni zamanda, tərkibində minerallar, vitaminlər və mikroelementlər olan qidaların qəbuluna da xüsusi diqqət yetirilməlidir".

İlk növbədə, hamilə qadınlar qida rasionundan spirtli və energetik, qazlı və tonuslandırıcı içkiləri çıxarmalıdırlar. Konservləşdirilmiş və hisə verilmiş qidalar, o cümlədən fastfudlar qəbul edilməməli, şirniyyatlardan az istifadə olunmalıdır. Şoraba, konfet və yağlı qidalar rasiona daxil edilməməlidir".

Hamiləliyin birinci yarısında 4, ikinci yarısında 5-6 dəfə qida qəbul edilməlidir. Eyni zamanda, hamiləliyin ilk aylarında 2-2,5 litr, 20-22-ci həftədən sonra isə 1,5 litrə qədər maye qəbul edilməsi məsləhət görülür.

# UEFA "Fənərbaxça"nı cərimələdi

UEFA "Fənərbaxça"nı 2 milyon avro məbləğində cərimələyib. Qurumun saytında yer alan məlumatda deyilir ki, buna İstanbul təmsilçisinin feyr-pley qaydalarını




pozması səbəb olub. Beləliklə, klubun 2020/2021 və 2021/2022 mövsümündə Avrokuboklardan alacağı mümkün gəlirlərindən 2 milyon avro kəsiləcək.

## ELAN

Rzayeva Elnurə Mirağa qızının adına verilmiş GH 000725 sayli hərbi vəsiqə itdiyi üçün etibarsiz sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**